

Dünyada gedən texnoloji inkişaf, elmin inkişafı, yeni texnologiyaların yaranması tələb edir ki, biz də öz inkişafımızı dünyada gedən meyillərə uyğunlaşdıraq. Burada təhsilin səviyyəsi ən başlıca şərtdir. Təhsilin səviyyəsi hər bir ölkənin ümumi səviyyəsini şərtləndirir. O ölkələr sürətlə inkişaf edir ki, orada insanlar biliklidir, savadlıdır.

Gənclər gələcəkdə ölkəmizi idarə edəcəklər. Azərbaycanın gələcəyi onların biliyindən, savadından, Vətənə bağlılığından asılıdır.

**İlham Əliyev,**

Azərbaycan Respublikasının Prezidenti

# 2015/2016-cı TƏDRİS İLİNDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏKTƏBLƏRİNƏ DAXİL OLMUŞ TƏLƏBƏLƏRƏ

# PREZİDENT TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. 2015/2016-cı tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü verilsin:

Abbasov Kamran Qaffar oğlu
Abbasov Nihad Natiq oğlu
Abdullaeva Arzu Etibar qızı
Abdulrəhimov Kamran Hüseyn oğlu
Abduyev Firuz Bayram oğlu
Ağayev İsmət Fabil oğlu
Alıyeva Nərmin Üzeyir qızı
Allahverdiyev Əli Allahverdi oğlu
Babaşova Məhbubə Vahid qızı
Bağırov Kənan Yəhya oğlu
Bağırova Nərmin Valeh qızı
Bayramova Fərəh Məmməd qızı
Bəgəliyev Namazəli Ağalar oğlu
Bəşirov Elçin Asif oğlu
Cabbarov Azad Atabala oğlu
Cabbarov Cabbar Heydər oğlu
Camalova Nərmin Çingiz qızı
Cəfərli Lalə Elşən qızı
Cəfərov Elşən Eldəniz oğlu
Cəfərov Sahil İlqar oğlu
Dadaşova Səidə Əli qızı
Eynallı Əlişah Elman oğlu
Əfəndiyeva Xəyalə Rəvan qızı
Əhmədov İbrahim Əhməd oğlu
Əhmədzadə Flora Mehti qızı
Ələddinzadə Murad Nəriman oğlu
Əliyeva Ayçin Rauf qızı
Əliyeva Nərmin Çingiz qızı
Əlizadə Bətulə Mahir qızı
Əmiraslanova Zeynəb Kərim qızı
Əzizli Vüsalə İldırım qızı
Hacızadə Nəzrin Elşən qızı
Həsənli Arzu Ədalət qızı
Həsənli Elvin Elçin oğlu
Həsənov İmamverdi Rövşən oğlu
Hüseynov Kamran Etibar oğlu
Xasməmmədov Hüseyn Rauf oğlu
İsayev Murad Sadiq oğlu
İsgəndərov Əli Rauf oğlu
İskəndərova Gülgəz Süleyman qızı
İsmayılov Fərid Elxan oğlu
İsmayılov Toğrul Rafiq oğlu
İsmayılova Təranə Xudaverdi qızı
İsmayılzadə Zərinə Şahin qızı
İsmixanov Teymur Vüqar oğlu
Kərimli Ləman Araz qızı
Qasımzadə Ləman Umud qızı
Qasımzadə Ümid Rəfael oğlu
Qədirli Elnur Qurban oğlu
Qədirova Leyla Mayıs qızı
Qocayev İlkin İlqar oğlu
Quliyev Zaur Rasim oğlu
Quluzadə Nərmin Səfər qızı
Mahmudova Asya İdris qızı
Mehdiyeva Gülnur Seyhun qızı
Məcidov Nurlan Namiq oğlu
Məhərrəmova Pəri Qafil qızı
Məmmədli Cavid Elxan oğlu
Məmmədli İsa Elişad oğlu
Məmmədli Rəhim Kamal oğlu
Məmmədli Türkay Sənan oğlu
Məmmədli Zərifə Asif qızı
Məmmədov Nihad Vasif oğlu
Məmmədova Yeganə Adil qızı
Məmmədzadə Ülviyyə Elçin qızı
Mirələmli Zərif Cahid qızı
Mirzəyeva Nigar Bəhlul qızı
Musazadə Fidan Ruslan qızı
Müslümov Azər Məmmədhüseyn oğlu
Nadirli Leyla Mehdi qızı
Namazov Nadir Mehdi oğlu
Namazova Selcan Səbuhi qızı
Nəcəfov Hüseyn Məzahir oğlu
Nəcəfov Kərim Cabbar oğlu
Nəzirov Mahir Müqəddəs oğlu
Novruzova Lalə Zəfər qızı
Orucova Ləman Mikayıl qızı
Ömərova Gülay Fərman qızı
Rəfizadə Mehdi Hicran oğlu
Rəhimova Jalə Anar qızı
Rəşidli Zaur Azər oğlu
Rüstəmova Səidə Rəşad qızı
Rzayeva Cəmilə Azər qızı
Sədiyeva Səidə Azər qızı
Sədrəddinova Səbinə Niymət qızı
Səfərli Səfər Ədalət oğlu
Səfərov Cavid Ramil oğlu
Sracbəyli Zöhrə Kamran qızı
Süleymanlı Murad Mətləb oğlu
Şahverdiyev Zaur Çingiz oğlu
Şirinbəyli Təranə Seymur qızı
Şirinov Tural Vidadi oğlu
Tağıyeva Nuranə Məzahir qızı
Təhməzov Məhərrəm Məhəmməd oğlu
Tomtulu Sədi Zaur oğlu
Vətəni Fərdin Fərhad oğlu
Yaqublu Ceyhun Ziyadxan oğlu
Yusifov Elgün Eldar oğlu
Yüzbaşova Sahilə Sali qızı
Zalova Günel Eldar qızı
Zeynallı Murad Nəriman oğlu
Zəkizadə Nərmin Nizami qızı

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 14 sentyabr 2015-ci il**



***M.Abbaszadə,***
***Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri***

## HÖRMƏTLİ OXUCULAR!

Jurnalımızın ənənəvi 11-ci sayı qəbul imtahanlarında ən yüksək nəticələr göstərərək ölkəmizin ali təhsil müəssisələrinə qəbul olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Prezident İlham Əliyev cənablarının 14 sentyabr 2015-ci il tarixli sərəncamı ilə açılır.

Xatırladırıq ki, bu, qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında hər tədris ilinin əvvəlində dövlət başçısı tərəfindən verilən 15-ci sərəncamdır. Onun əsası ulu öndərimiz Heydər Əliyevin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 3 sentyabr 2001-ci il tarixli fərmanı ilə qoyulmuşdur. Fərmanda təhsil sahəsində yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək, onların təhsil alması üçün daha əlverişli şərait yaradılmasını təmin etmək və təhsilə olan həvəslərini artırmaq məqsədi təsbit olunmuşdur.

O vaxtdan qəbul imtahanlarında yüksək nəticələr göstərən gənclərin təhsil sahəsindəki təcrübəsinin öyrənilməsi, təbliği, ictimaiyyətə tanıdılması və rəğbətləndirilməsi məqsədilə TQDK tərəfindən həyata keçirilən tədbirlərin əhatə dairəsi daha da genişləndirilib.

Ötən illərin təcrübəsi və araşdırmalar göstərir ki, bilik yarışı öncüllərinin nailiyyətləri həm cəmiyyətdə, həm də məktəb və ailə mühitində güclü təsirə malik örnək və

nümunədir. Son 20 ildə ali məktəblərə 600-dən yuxarı balla qəbul olan gənclərin sayının artma dinamikası da bunu təsdiq edir. Belə gənclərin sayı əgər 20 il bundan əvvəl 17 nəfər, 15 il bundan əvvəl 267 nəfər, 10 il bundan əvvəl 1050 nəfər, 5 il əvvəl 1284 nəfər təşkil edirdisə, 2015-c ildə 2096 nəfər olub.

Jurnalın bu sayı ənənəyə uyğun olaraq gəncliyimizin intellektual elitasının builki təmsilçilərinə həsr olunub. "Prezident təqaüdçüləri haqqında məlumat" bölməsində bu ada layiq görülənlərin ixtisas qrupları, təmsil olunduqları şəhər və rayonlar, təhsil müəssisələri üzrə siyahısı və sayı təqdim olunub. 600-dən yuxarı bal toplamış gənclər bölməsində isə onların bölgələr üzrə sayı verilib. Burada həmçinin abituriyentlərinin sayına nəzərən 600-dən yuxarı bal toplayan məzunlarının sayı və faizi daha çox olan ümumtəhsil müəssisələrinin adları təqdim olunub. Bütün bu materiallar təhsil ictimaiyyəti üçün nəinki mötəbər informasiya mənbəyidir, eyni zamanda, onların nəzərdiqqətini qabaqcıl təcrübənin, örnəyin, nümunənin ünvanlarına yönəltməkdir.

Təqdim olunan digər maraqlı məlumat yüksək bal toplamış gənclərin qəbul üçün ölkənin hansı ali təhsil müəssisələrini seçməsi və buna müvafiq say göstəriciləridir.

Jurnalın elektron (internet) versiyasında hər bir yüksək göstəricili gəncin topladığı bal, qəbul olduğu ixtisas, bitirdiyi ümumtəhsil məktəbi haqqında məlumatlar da təqdim olunub.

Bu il qəbul imtahanında 15 nəfər gənc maksimal nəticə (700 bal) göstərib. Onlarla aparılmış müsahibələr jurnalın ən maraqlı materiallarındandır.

Əvvəlki illərdə olduğu kimi, bu il də bilik yarışı öncülləri ilə anket sorğusu aparılıb. Sorğuda abituriyentlərdən qəbul imtahanına necə hazırlaşması (müstəqil, repetitorla, hazırlıq kurslarında), hazırlığın müddəti, qəbul üçün hansı motivasiyanı əsas tutması, ixtisas seçiminə kimlərin və nələrin təsir etməsi, imtahan suallarının məzmunu, çətinlik dərəcəsi, o cümlədən açıq tipli test tapşırıqları, imtahana ayrılan vaxt, imtahanda yaradılan şərait, rast gəlinən neqativ hallar və s. barədə rəyləri soruşulub. Sorğuya verilmiş cavablar redaksiyanın analitik-informasiya qrupu tərəfindən araşdırılıb, ümumiləşdirilib və nəticələr jurnalın bu sayında dərc edilib. Anket sorğusu iştirakçılarına qəbul imtahanlarına hazırlıqla bağlı öz təcrübələri barədə fikirlərini, gələcək abituriyentlərə məsləhət və tövsiyələrini bildirməyə də imkan yaradılmışdı. Bununla bağlı cavablardan daha çox diqqət çəkən nümunələr, eləcə də onların qəbul prosesinin müxtəlif mərhələləri və tərəflərinə münasibətlərini əks etdirən rəy və təklifləri təqdim olunub.

Gəncliyimizin qızıl fondunu təşkil edən dünənki yüksəkballı abituriyentlərin təcrübəsini öyrənməkdə və təbliğ etməkdə bizim istəyimiz onları öz böyük uğurlarını ali təhsil həyatında da davam etdirməyə səsləməkdir. Çünki onların hər birinin gələcəkdə yüksək səviyyəli mütəxəssis olmağa güclü potensialı vardır. Məqsədimiz həm də bu günün şagirdlərinə – gələcək abituriyentlərə, onların valideynlərinə, təhsil işçilərinə qabaqcıl təcrübə nümunələri və örnəklərini göstərmək, onları bu nümunələrdən nəticə çıxarmağa çağırmaqdır.

# PREZİDENT TƏQAÜDÇÜLƏRİ HAQQINDA MƏLUMAT

Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 2015-ci il tarixli sərəncamına əsasən, bu il Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş 102 tələbəyə Prezident təqaüdü təyin edilmişdir.

I ixtisas qrupunda Prezident təqaüdünə 690 bal və daha yüksək nəticə göstərmiş tələbələr layiq görülmüşdür. Onların 8 nəfəri qız, 19 nəfəri isə oğlandır.

II ixtisas qrupunda Prezident təqaüdünə 677 bal və daha yüksək nəticə göstərmiş tələbələr layiq görülmüşdür. Onların 5 nəfəri qız, 20 nəfəri isə oğlandır.

III ixtisas qrupunda Prezident təqaüdünə 685 bal və daha yüksək nəticə göstərmiş tələbələr layiq görülmüşdür. Onların 18 nəfəri qız, 7 nəfəri isə oğlandır.

IV ixtisas qrupunda Prezident təqaüdünə 687 bal və daha yüksək nəticə göstərmiş tələbələr layiq görülmüşdür. Onların 17 nəfəri qız, 6 nəfəri isə oğlandır.

Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2006-cı il tarixli, 509 №-li Fərmanının 2-ci bəndinə əsasən, Naxçıvan Muxtar Respublikasından I ixtisas qrupu üzrə qəbul imtahanında 687 bal toplamış 1 nəfər qız və IV ixtisas qrupunda 686 bal toplamış 1 nəfər oğlan Prezident təqaüdünə layiq görülmüşdür.

Ümumilikdə Prezident təqaüdünə layiq görülmüş tələbələrin 49 nəfəri qız, 53 nəfəri isə oğlandır. Prezident təqaüdçülərindən 25 nəfər ADA Universitetinə, 24 nəfər Azərbaycan Tibb Universitetinə, 17 nəfər Bakı Ali Neft Məktəbinə, 14 nəfər Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına, 9 nəfər "Qafqaz" Universitetinə, 6 nəfər Bakı Dövlət Universitetinə, 4 nəfər Naxçıvan Dövlət Universitetinə, 1 nəfər Azərbaycan Dillər Universitetinə, 1 nəfər Azərbaycan Dövlət İqtisad Universitetinə, 1 nəfər isə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə daxil olmuşdur.

**Aşağıda Prezident təqaüdçülərinin bitirdikləri məktəblər üzrə siyahısını təqdim edirik:**

| QRUP | Bakı şəhəri | 17 nəfər |
|---|---|---|
| I | 163 saylı tam orta məktəb – Məmmədli İsa Elşad oğlu | 1 |
| | Bakı Türk liseyi (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) – İsmixanov Teymur Vüqar oğlu, Abduyev Firuz Bayram oğlu, Əliyeva Nərmin Çingiz qızı, Zəkizadə Nərmin Nizami qızı, Tomtulu Sədi Zaur oğlu | 5 |
| | 17 saylı tam orta məktəb – Məmmədov Nihad Vasif oğlu | 1 |
| | 221 saylı tam orta məktəb – Yaqublu Ceyhun Ziyadxan oğlu | 1 |
| | 98 saylı tam orta məktəb – Müslümov Azər Məmmədhüseyn oğlu | 1 |
| | 1 saylı tam orta məktəb – Yusifov Elgün Eldar oğlu | 1 |
| | Atatürk liseyi (Türk Dünyası Araşdırmaları Vəqfi) – Məmmədli Rəhim Kamal oğlu | 1 |
| | Kimya-biologiya təmayüllü lisey – Namazov Nadir Mehdi oğlu | 1 |
| | Xəzər Universitetinin nəzdində "Dünya" məktəbi – Hüseynov Kamran Etibar oğlu | 1 |
| | 33 saylı tam orta məktəb – Məmmədzadə Ülviyyə Elçin qızı | 1 |
| | Akademik Z.Əliyeva adına lisey – Şahverdiyev Zaur Çingiz oğlu | 1 |
| | 263 saylı tam orta məktəb – Həsənli Elvin Elçin oğlu | 1 |
| | 149 saylı tam orta məktəb – Abdullaeva Arzu Etibar qızı | 1 |
| | **Naxçıvan şəhəri** | **2 nəfər** |
| | A.Cəlilov adına 12 saylı tam orta məktəb – Nəcəfov Hüseyn Məzahir oğlu | 1 |
| | H.Cavid adına 5 saylı tam orta məktəb – Əlizadə Bətulə Mahir qızı | 1 |

| | | |
|---|---|---|
| I | **Naxçıvan MR Şərur rayonu** | **1 nəfər** |
| | Z.Hacıyev adına Zeyvə kənd tam orta məktəbi – Allahverdiyev Əli Allahverdi oğlu | 1 |
| | **Bərdə rayonu** | **1 nəfər** |
| | Akademik Z.Əliyeva adına Texniki təmayüllü məktəb-lisey – Həsənli Arzu Ədalət qızı | 1 |
| | **Şəki rayonu** | **1 nəfər** |
| | Baş Şabalıd kənd tam orta məktəbi – Sədiyeva Səidə Azər qızı | 1 |
| | **Gəncə şəhəri** | **1 nəfər** |
| | Mir Cəlal adına 39 saylı şəhər tam orta məktəbi – Vətəni Fərdin Fərhad oğlu | 1 |
| | **Quba rayonu** | **1 nəfər** |
| | Texniki təmayüllü liseyin eksperimental pilot sinfi – Ağayev İsmət Fabil oğlu | 1 |
| | **Qubadlı rayonu** | **1 nəfər** |
| | İsa Məmmədov adına Aşağı Mollu kənd tam orta məktəbi – Abbasov Nihad Natiq oğlu | 1 |
| | **Qəbələ rayonu** | **1 nəfər** |
| | Həmzəlli kənd tam orta məktəbi – Sracbəyli Zöhrə Kamran qızı | 1 |
| | **Cəbrayıl rayonu** | **1 nəfər** |
| | Hovuslu kənd tam orta məktəbi (Bakı şəhəri Suraxanı rayonunda yerləşir) – Hacızadə Nəzrin Elşən qızı | 1 |
| | **Zəngilan rayonu** | **1 nəfər** |
| | 28 saylı tam orta məktəb – Süleymanlı Murad Mətləb oğlu | 1 |

| QRUP | Bakı şəhəri | 13 nəfər |
|---|---|---|
| II | 214 saylı tam orta məktəb – Əhmədov İbrahim Əhməd oğlu | 1 |
| | 126 saylı tam orta məktəb – Camalova Nərmin Çingiz qızı | 1 |
| | İ.Əfəndiyev adına “Elitar” gimnaziya – Ələddinzadə Murad Nəriman oğlu | 1 |
| | 213 saylı tam orta məktəb-lisey – İskəndərova Gülgəz Süleyman qızı | 1 |
| | 289 saylı tam orta məktəb-“Zəngi” liseyi – Rəşidli Zaur Azər oğlu | 1 |
| | 252 saylı tam orta məktəb-lisey – Qasımzadə Ümid Rəfael oğlu | 1 |
| | 278 saylı tam orta məktəb – Məmmədli Türkay Sənan oğlu | 1 |
| | 211 saylı tam orta məktəb – Musazadə Fidan Ruslan qızı | 1 |
| | 234 saylı tam orta məktəb – Rəhimova Jalə Anar qızı | 1 |
| | 114 saylı tam orta məktəb – Məmmədli Zərifə Asif qızı | 1 |
| | Akademik Z.Əliyeva adına lisey – İsmayılov Fərid Elxan oğlu | 1 |
| | Avropa Azərbaycan məktəbi – Zeynallı Murad Nəriman oğlu | 1 |
| | Azərbaycan Respublikası Təhsil Nazirliyi, Heydər Əliyev adına lisey – Bağırov Kənan Yəhya oğlu | 1 |
| | **Sumqayıt şəhəri** | **1 nəfər** |
| | Texniki və təbiət elmləri liseyi – İsmayılov Toğrul Rafiq oğlu | 1 |
| | **Naxçıvan şəhəri** | **1 nəfər** |
| | C.Naxçıvanski adına 11 saylı tam orta məktəb – Nəcəfov Kərim Cabbar oğlu | 1 |
| | **Abşeron rayonu** | **1 nəfər** |
| | Xırdalan şəhər B.Cəfərov adına 3 saylı tam orta məktəb – İsgəndərov Əli Rauf oğlu | 1 |
| | Xırdalan şəhər 9 saylı tam orta məktəb – Rəfizadə Mehdi Hicran oğlu | 1 |
| | **Gəncə şəhəri** | **1 nəfər** |
| | 2 saylı internat tipli xarici dillər təmayüllü gimnaziya – Abbasov Kamran Qaffar oğlu | 1 |
| | **Salyan rayonu** | **1 nəfər** |
| | Kürqaraqaşlı kənd tam orta məktəbi – Qədirli Elnur Qurban oğlu | 1 |

| | | |
|---|---|---|
| II | **Şəmkir rayonu** | **1 nəfər** |
| | B.Rüstəmov adına Dəllər-Cəyir kənd tam orta məktəbi – Quliyev Zaur Rasim oğlu | 1 |
| | **Şirvan şəhəri** | **1 nəfər** |
| | 18 saylı təbiət və humanitar fənlər təmayüllü məktəb-liseyin eksperimental pilot sinifləri – Qocayev İlkin İlqar oğlu | 1 |
| | **Saatlı rayonu** | **1 nəfər** |
| | Əlisultanlı kənd tam orta məktəbi – Nəzirov Mahir Müqəddəs oğlu | 1 |
| | **Ağdam rayonu** | **1 nəfər** |
| | 2 saylı tam orta məktəb – Təhməzov Məhərrəm Məhəmməd oğlu | 1 |
| | **Ağdaş rayonu** | **1 nəfər** |
| | M.Şeyxzadə adına Texniki, təbiət və humanitar təmayüllü internat tipli gimnaziya – Səfərov Cavid Ramil oğlu | 1 |
| | **Zəngilan rayonu** | **1 nəfər** |
| | 15 saylı tam orta məktəb – Cabbarov Cabbar Heydər oğlu | 1 |

| **QRUP** | **Bakı şəhəri** | **8 nəfər** |
|---|---|---|
| III | Bakı Türk liseyi (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) – Abdulrəhimov Kamran Hüseyn oğlu, Səfərli Səfər Ədalət oğlu | 2 |
| | 272 saylı tam orta məktəb – Cəfərov Sahil İlqar oğlu | 1 |
| | 257 saylı tam orta məktəb – Məmmədova Yeganə Adil qızı | 1 |
| | 267 saylı tam orta məktəb – Qədirova Leyla Mayıs qızı | 1 |
| | 275 saylı tam orta məktəb – Bağırova Nərmin Valeh qızı | 1 |
| | 289 saylı tam orta məktəb-“Zəngi” liseyi – Qasımzadə Ləman Umud qızı | 1 |
| | Akademik Z.Əliyeva adına lisey – Babaşova Məhbubə Vahid qızı | 1 |
| | **Sumqayıt şəhəri** | **8 nəfər** |
| | 31 saylı tam orta məktəb – Mirələmli Zərif Cahid qızı, Mehdiyeva Gülnur Seyhun qızı | 2 |
| | **Naxçıvan şəhəri** | **1 nəfər** |
| | M.C.Cəfərov adına 14 saylı tam orta məktəb – Orucova Ləman Mikayıl qızı | 1 |
| | **Naxçıvan MR Şərur rayonu** | **1 nəfər** |
| | Kürkənd kənd tam orta məktəbi – İsmayılova Təranə Xudaverdi qızı | 1 |
| | **Abşeron rayonu** | **1 nəfər** |
| | Xırdalan şəhər 5 saylı tam orta məktəb – Zalova Günel Eldar qızı | 1 |
| | **Naftalan şəhəri** | **1 nəfər** |
| | S.Vurğun adına 2 saylı şəhər tam orta məktəbi – Rzayeva Cəmilə Azər qızı | 1 |
| | **Gəncə şəhəri** | **2 nəfər** |
| | 24 saylı şəhər tam orta məktəbi – Namazova Selcan Səbuhi qızı | 1 |
| | M.Mehdizadə adına 4 saylı şəhər tam orta məktəbi – Xasməmmədov Hüseyn Rauf oğlu | 1 |
| | **Şirvan şəhəri** | **2 nəfər** |
| | 18 saylı təbiət və humanitar fənlər təmayüllü məktəb-liseyin eksperimental pilot sinifləri – Məmmədli Cavid Elxan oğlu, Bəşirov Elçin Asif oğlu | 2 |
| | **Mingəçevir şəhəri** | **1 nəfər** |
| | İ.Qayıbov adına 10 saylı şəhər tam orta məktəbi – Əmiraslanova Zeynəb Kərim qızı | 1 |
| | **Masallı rayonu** | **1 nəfər** |
| | Həsənli kənd tam orta məktəbi – Cabbarov Azad Atabala oğlu | 1 |
| | **Sabirabad rayonu** | **1 nəfər** |
| | N.Gəncəvi adına 5 saylı şəhər tam orta məktəbi – Əhmədzadə Flora Mehti qızı | 1 |

| | | |
|---|---|---|
| III | **Laçın rayonu** | **1 nəfər** |
| | 10 saylı tam orta məktəb – Tağıyeva Nuranə Məzahir qızı | 1 |
| | **Cəbrayıl rayonu** | **1 nəfər** |
| | Biləsuvar, 9 nömrəli qəsəbə 15 saylı tam orta məktəb – Novruzova Lalə Zəfər qızı | 1 |
| | **Qəbələ rayonu** | **2 nəfər** |
| | Nohurqışlaq kənd tam orta məktəb – Əzizli Vüsalə İldirim qızı | 1 |
| | Vəndam qəsəbə 3 saylı tam orta məktəb – Əfəndiyeva Xəyalə Rəvan qızı | 1 |

| QRUP | Bakı şəhəri | 13 nəfər |
|---|---|---|
| IV | Bakı Türk Anadolu liseyi – Məcidov Nurlan Namiq oğlu | 1 |
| | 214 saylı tam orta məktəb – İsayev Murad Sadiq oğlu | 1 |
| | 275 saylı tam orta məktəb – Alıyeva Nərmin Üzeyir qızı | 1 |
| | 167 saylı tam orta məktəb – Dadaşova Səidə Əli qızı | 1 |
| | 10 saylı tam orta məktəb – Rüstəmova Səidə Rəşad qızı | 1 |
| | Bakı Türk liseyi (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) – Mirzəyeva Nigar Bəhlul qızı, Nadirli Leyla Mehdi qızı | 2 |
| | 96 saylı tam orta məktəb – Əliyeva Ayçin Rauf qızı | 1 |
| | 150 saylı tam orta məktəb – Bayramova Fərəh Məmməd qızı | 1 |
| | H.Əliyev adına Müasir Təhsil Kompleksi – Yüzbaşova Sahilə Sali qızı | 1 |
| | 194 saylı tam orta məktəb – Bəgəliyev Namazəli Ağalar oğlu | 1 |
| | 18 saylı şəhər tam orta məktəbi – Sədrəddinova Səbinə Niymət qızı | 1 |
| | 148 saylı tam orta məktəb – Şirinov Tural Vidadi oğlu | 1 |
| | **Sumqayıt şəhəri** | **2 nəfər** |
| | Texniki və təbiət elmləri liseyi – Quluzadə Nərmin Səfər qızı | 1 |
| | Təbiət elmləri təmayüllü gimnaziya – Məhərrəmova Pəri Qafil qızı | 1 |
| | **Naxçıvan şəhəri** | **1 nəfər** |
| | E.Sultanov adına 7 saylı tam orta məktəb – Həsənov İmamverdi Rövşən oğlu | 1 |
| | **Naxçıvan MR Şərur rayonu** | **1 nəfər** |
| | Alışar kənd tam orta məktəbi – Cəfərov Elşən Eldəniz oğlu | 1 |
| | **Qəbələ rayonu** | **1 nəfər** |
| | V.Qəhrəmanov adına 1 saylı şəhər tam orta məktəbi – Şirinbəyli Təranə Seymur qızı | 1 |
| | **Balakən rayonu** | **1 nəfər** |
| | Nizami adına şəhər tam orta məktəbi – Ömərova Gülay Fərman qızı | 1 |
| | **Lənkəran rayonu** | **1 nəfər** |
| | 10 saylı şəhər tam orta məktəbi – Cəfərli Lalə Elşən qızı | 1 |
| | **Masallı rayonu** | **1 nəfər** |
| | 'Dəfinə' liseyi – Eynallı Əlişah Elman oğlu | 1 |
| | **Zaqatala rayonu** | **1 nəfər** |
| | Əliabad qəsəbə 1 saylı tam orta məktəbi – Mahmudova Asya İdris qızı | 1 |
| | **Ağdaş rayonu** | **1 nəfər** |
| | V.Cəfərov adına Kotavan kənd tam orta məktəbi – Kərimli Ləman Araz qızı | 1 |

# QƏBUL İMTAHANLARINDA YÜKSƏK NƏTİCƏ ƏLDƏ ETMİŞ GƏNCLƏR HAQQINDA MƏLUMAT

Bu il respublikanın ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarında 88 min 791 abituriyent iştirak etmişdir. Abituriyentlərdən 2096 nəfəri 600 baldan yuxarı nəticə göstərmişdir. Onlar respublikanın, demək olar, bütün şəhər və rayonlarını, o cümlədən bəzi kənd məktəblərini təmsil edirlər. Yüksək nəticə göstərənlər I qrupda 579, II qrupda 422, III qrupda 662, IV qrupda 433 nəfərdir. 15 nəfər isə maksimal nəticə (700 bal) göstərmişdir. Onların 7-si I qrupun, 3-ü II qrupun, 3-ü III qrupun, 2-si isə IV qrupun abituriyentləridir.

### 600 VƏ DAHA ÇOX BAL TOPLAYANLARIN QƏBUL OLDUQLARI ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ SAYI

| № | Ali təhsil müəssisələri | Qəbul olanların | | İxtisas qrupları üzrə qəbul olanların sayı və faizi | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | I | | II | | III | | IV | |
| | | sayı | faizi | sayı | faizi | sayı | faizi | sayı | faizi | sayı | faizi |
| 1 | Bakı Dövlət Universiteti | 322 | 15.62 | 67 | 11.82 | 10 | 2.42 | 241 | 36.57 | 4 | 0.95 |
| 2 | Azərbaycan Dövlət Neft və Sənaye Universiteti | 117 | 5.67 | 114 | 20.11 | 3 | 0.72 | 0 | 0.00 | 0 | 0.00 |
| 3 | Azərbaycan Texniki Universiteti | 1 | 0.05 | 1 | 0.18 | 0 | 0.00 | 0 | 0.00 | 0 | 0.00 |
| 4 | Azərbaycan Memarlıq və İnşaat Universiteti | 2 | 0.10 | 2 | 0.35 | 0 | 0.00 | 0 | 0.00 | 0 | 0.00 |
| 5 | Azərbaycan Tibb Universiteti | 395 | 19.16 | 0 | 0.00 | 0 | 0.00 | 0 | 0.00 | 395 | 93.60 |
| 6 | Azərbaycan Dövlət Pedaqoji Universiteti | 1 | 0.05 | 1 | 0.18 | 0 | 0.00 | 0 | 0.00 | 0 | 0.00 |
| 7 | Azərbaycan Dövlət İqtisad Universiteti | 103 | 5.00 | 1 | 0.18 | 102 | 24.64 | 0 | 0.00 | 0 | 0.00 |
| 8 | Azərbaycan Dillər Universiteti | 138 | 6.69 | 0 | 0.00 | 0 | 0.00 | 138 | 20.94 | 0 | 0.00 |
| 9 | Bakı Slavyan Universiteti | 8 | 0.39 | 0 | 0.00 | 0 | 0.00 | 8 | 1.21 | 0 | 0.00 |
| 10 | Azərbaycan Müəllimlər İnstitutu | 3 | 0.15 | 2 | 0.35 | 0 | 0.00 | 1 | 0.15 | 0 | 0.00 |
| 11 | Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası | 222 | 10.77 | 33 | 5.82 | 101 | 24.40 | 88 | 13.35 | 0 | 0.00 |
| 12 | ADA Universiteti | 185 | 8.97 | 36 | 6.35 | 100 | 24.15 | 49 | 7.44 | 0 | 0.00 |
| 13 | Azərbaycan Turizm və Menecment Universiteti | 12 | 0.58 | 0 | 0.00 | 1 | 0.24 | 11 | 1.67 | 0 | 0.00 |
| 14 | Milli Aviasiya Akademiyası | 12 | 0.58 | 11 | 1.94 | 0 | 0.00 | 1 | 0.15 | 0 | 0.00 |
| 15 | Bakı Ali Neft Məktəbi | 120 | 5.82 | 120 | 21.16 | 0 | 0.00 | 0 | 0.00 | 0 | 0.00 |
| 16 | Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası | 16 | 0.78 | 0 | 0.00 | 4 | 0.97 | 12 | 1.82 | 0 | 0.00 |
| 17 | Naxçıvan Dövlət Universiteti | 31 | 1.50 | 1 | 0.18 | 1 | 0.24 | 21 | 3.19 | 8 | 1.90 |
| 18 | Azərbaycan Dövlət Aqrar Universiteti | 2 | 0.10 | 1 | 0.18 | 1 | 0.24 | 0 | 0.00 | 0 | 0.00 |
| 19 | Gəncə Dövlət Universiteti | 3 | 0.15 | 1 | 0.18 | 0 | 0.00 | 2 | 0.30 | 0 | 0.00 |
| 20 | Lənkəran Dövlət Universiteti | 2 | 0.10 | 0 | 0.00 | 0 | 0.00 | 2 | 0.30 | 0 | 0.00 |
| 21 | M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı | 5 | 0.24 | 5 | 0.88 | 0 | 0.00 | 0 | 0.00 | 0 | 0.00 |
| 22 | İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı | 12 | 0.58 | 0 | 0.00 | 0 | 0.00 | 0 | 0.00 | 12 | 2.84 |
| 23 | Xəzər Universiteti | 25 | 1.21 | 19 | 3.35 | 4 | 0.97 | 2 | 0.30 | 0 | 0.00 |
| 24 | Qafqaz Universiteti | 259 | 12.56 | 143 | 25.22 | 86 | 20.77 | 29 | 4.40 | 1 | 0.24 |
| 25 | Xüsusi təyinatlı ali təhsil müəssisələri | 64 | 3.10 | 9 | 1.59 | 1 | 0.24 | 54 | 8.19 | 0 | 0.00 |
| 26 | Türkiyənin ali təhsil müəssisələri | 2 | 0.10 | 0 | 0.00 | 0 | 0.00 | 0 | 0.00 | 2 | 0.47 |
| | **Cəmi** | **2062** | **100.00** | **567** | **100.00** | **414** | **100.00** | **659** | **100.00** | **422** | **100.00** |

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL İMTAHANLARINDA YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏRİN BÖLGƏLƏR ÜZRƏ SAYI

| № | BÖLGƏ | Bölgə üzrə abi-turiyentlərin ümumi sayı | 500-700 intervalında bal toplayanların sayı | 600-700 intervalında bal toplayanların sayı | 500-dən yuxarı bal toplayanların faizi (bölgə üzrə abituriyentlərin ümumi sayına nəzərən) |
|---|---|---|---|---|---|
| 1 | Bakı şəhəri | 27512 | 2623 | 897 | 9.53 |
| 2 | Sumqayıt şəhəri | 3998 | 385 | 133 | 9.63 |
| 3 | Gəncə şəhəri | 3380 | 222 | 74 | 6.57 |
| 4 | Abşeron rayonu | 2034 | 134 | 40 | 6.59 |
| 5 | Şəki rayonu | 1659 | 151 | 62 | 9.10 |
| 6 | Lənkəran rayonu | 1469 | 78 | 25 | 5.31 |
| 7 | Quba rayonu | 1328 | 38 | 13 | 2.86 |
| 8 | Şəmkir rayonu | 1319 | 90 | 22 | 6.82 |
| 9 | Ağdam rayonu | 1248 | 85 | 24 | 6.81 |
| 10 | Xaçmaz rayonu | 1184 | 30 | 9 | 2.53 |
| 11 | Naxçıvan şəhəri | 1166 | 98 | 39 | 8.40 |
| 12 | Cəlilabad rayonu | 1144 | 45 | 11 | 3.93 |
| 13 | Tovuz rayonu | 1093 | 88 | 37 | 8.05 |
| 14 | Bərdə rayonu | 1077 | 79 | 28 | 7.34 |
| 15 | Qəbələ rayonu | 1059 | 121 | 51 | 11.43 |
| 16 | Mingəçevir şəhəri | 1020 | 119 | 40 | 11.67 |
| 17 | Masallı rayonu | 1007 | 66 | 22 | 6.55 |
| 18 | Füzuli rayonu | 945 | 47 | 12 | 4.97 |
| 19 | Ağcabədi rayonu | 894 | 55 | 19 | 6.15 |
| 20 | Laçın rayonu | 889 | 55 | 15 | 6.19 |
| 21 | Kəlbəcər rayonu | 870 | 39 | 13 | 4.48 |
| 22 | Goranboy rayonu | 864 | 35 | 12 | 4.05 |
| 23 | Göyçay rayonu | 860 | 68 | 21 | 7.91 |
| 24 | İmişli rayonu | 825 | 37 | 11 | 4.48 |
| 25 | Zaqatala rayonu | 809 | 51 | 15 | 6.30 |
| 26 | Ağdaş rayonu | 806 | 45 | 14 | 5.58 |
| 27 | İsmayıllı rayonu | 799 | 66 | 20 | 8.26 |
| 28 | Yevlax rayonu | 792 | 36 | 10 | 4.55 |
| 29 | Naxçıvan MR Şərur ray. | 783 | 45 | 15 | 5.75 |
| 30 | Naxçıvan MR Babək ray. | 780 | 42 | 11 | 5.38 |
| 31 | Salyan rayonu | 765 | 80 | 25 | 10.46 |
| 32 | Şirvan şəhəri | 747 | 69 | 34 | 9.24 |
| 33 | Sabirabad rayonu | 745 | 32 | 7 | 4.30 |

| № | B Ö L G Ə | Bölgə üzrə abi-turiyentlərin ümumi sayı | 500-700 intervalında bal toplayanların sayı | 600-700 intervalında bal toplayanların sayı | 500-dən yuxarı bal toplayanların faizi (bölgə üzrə abituriyentlərin ümumi sayına nəzərən) |
|---|---|---|---|---|---|
| 34 | Beyləqan rayonu | 716 | 30 | 11 | 4.19 |
| 35 | Qazax rayonu | 695 | 56 | 20 | 8.06 |
| 36 | Biləsuvar rayonu | 694 | 53 | 21 | 7.64 |
| 37 | Cəbrayıl rayonu | 690 | 44 | 19 | 6.38 |
| 38 | Göygöl rayonu | 671 | 44 | 14 | 6.56 |
| 39 | Astara rayonu | 648 | 26 | 7 | 4.01 |
| 40 | Şamaxı rayonu | 645 | 32 | 9 | 4.96 |
| 41 | Qusar rayonu | 614 | 31 | 7 | 5.05 |
| 42 | Kürdəmir rayonu | 599 | 36 | 12 | 6.01 |
| 43 | Ağstafa rayonu | 576 | 54 | 16 | 9.38 |
| 44 | Tərtər rayonu | 537 | 23 | 6 | 4.28 |
| 45 | Gədəbəy rayonu | 533 | 40 | 8 | 7.50 |
| 46 | Balakən rayonu | 526 | 30 | 6 | 5.70 |
| 47 | Ucar rayonu | 509 | 32 | 9 | 6.29 |
| 48 | Qubadlı rayonu | 506 | 55 | 15 | 10.87 |
| 49 | Yardımlı rayonu | 492 | 16 | 5 | 3.25 |
| 50 | Naxçıvan MR Culfa ray. | 458 | 47 | 17 | 10.26 |
| 51 | Neftçala rayonu | 440 | 59 | 16 | 13.41 |
| 52 | Ağsu rayonu | 439 | 12 | 2 | 2.73 |
| 53 | Oğuz rayonu | 436 | 41 | 8 | 9.40 |
| 54 | Lerik rayonu | 432 | 18 | 6 | 4.17 |
| 55 | Zəngilan rayonu | 431 | 38 | 11 | 8.82 |
| 56 | Samux rayonu | 429 | 21 | 1 | 4.90 |
| 57 | Saatlı rayonu | 425 | 30 | 5 | 7.06 |
| 58 | Şabran rayonu | 403 | 11 | 1 | 2.73 |
| 59 | Naxçıvan MR Ordubad ray. | 396 | 36 | 7 | 9.09 |
| 60 | Qax rayonu | 395 | 35 | 11 | 8.86 |
| 61 | Zərdab rayonu | 390 | 17 | 6 | 4.36 |
| 62 | Siyəzən rayonu | 374 | 11 | 6 | 2.94 |
| 63 | Hacıqabul rayonu | 325 | 18 | 6 | 5.54 |
| 64 | Naxçıvan MR Kəngərli ray. | 281 | 5 | 0 | 1.78 |
| 65 | Naxçıvan MR Şahbuz ray. | 242 | 21 | 6 | 8.68 |
| 66 | Qobustan rayonu | 237 | 14 | 3 | 5.91 |
| 67 | Şuşa rayonu | 161 | 8 | 5 | 4.97 |
| 68 | Daşkəsən rayonu | 146 | 6 | 3 | 4.11 |
| 69 | Xocavənd rayonu | 124 | 5 | 0 | 4.03 |
| 70 | Xocalı rayonu | 114 | 10 | 4 | 8.77 |
| 71 | Xızı rayonu | 109 | 3 | 2 | 2.75 |
| 72 | Naxçıvan MR Sədərək ray. | 87 | 4 | 2 | 4.60 |
| 73 | Xarici dövlətlər | 72 | 2 | 0 | 2.78 |
| 74 | Naftalan şəhəri | 59 | 7 | 2 | 11.86 |
| | **Respublika üzrə cəmi:** | **82926** | **6335** | **2096** | **7.64** |

## ABİTURİYENTLƏRİNİN SAYINA NƏZƏRƏN YÜKSƏK BAL TOPLAYAN MƏZUNLARININ FAİZİ DAHA ÇOX OLAN TƏHSİL MÜƏSSİSƏLƏRİ (2015-ci ilin məzunları, I-IV qruplar üzrə)*

| № | Məktəb | Məktəb üzrə abituriyentlərin ümumi sayı | 600-dən yuxarı bal toplayan abituriyentlərin sayı | 600-dən yuxarı bal toplayanların faizi (məktəb üzrə abituriyentlərin ümumi sayına nəzərən) |
|---|---|---|---|---|
| 1 | Biləsuvar rayonu M. İbrahimov adına Biləsuvar lisey-məktəb kompleksi | 25 | 20 | 80.00 |
| 2 | Bakı Türk liseyi (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) | 124 | 80 | 64.52 |
| 3 | Şirvan şəhəri 18 saylı təbiət və humanitar fənlər təmayüllü məktəb-liseyin eksperimental pilot sinifləri | 27 | 14 | 51.85 |
| 4 | Sumqayıt şəhəri Texniki və təbiət elmləri liseyi | 50 | 23 | 46.00 |
| 5 | Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya | 45 | 19 | 42.22 |
| 6 | BDU-nun nəzdində "Gənc istedadlar" liseyi | 51 | 14 | 27.45 |
| 7 | Quba rayonu Texniki təmayüllü liseyin eksperimental pilot sinifi | 22 | 6 | 27.27 |
| 8 | Bakı şəhəri Akademik Z.Əliyeva adına lisey | 151 | 40 | 26.49 |
| 9 | Bakı şəhəri “Elitar” gimnaziya | 23 | 6 | 26.09 |
| 10 | Mingəçevir şəhəri Texniki-humanitar liseyin eksperimental pilot sinifi | 28 | 7 | 25.00 |
| 11 | Bakı şəhəri 291 saylı "Araz" ekologiya liseyi | 41 | 10 | 24.39 |
| 12 | Bakı Avropa liseyi | 62 | 15 | 24.19 |
| 13 | Bakı şəhəri 287 saylı 'Zəkalar' liseyi | 61 | 14 | 22.95 |
| 14 | Lənkəran rayonu V.Əliyev adına şəhər 4 saylı məktəb-liseyin eksperimental pilot sinfi | 25 | 5 | 20.00 |
| 15 | Qəbələ rayonu Həmzəlli kənd tam orta məktəbi | 22 | 4 | 18.18 |
| 16 | Naxçıvan şəhər qızlar liseyi | 29 | 5 | 17.24 |
| 17 | Göygöl rayonu Texniki və təbiət fənləri təmayüllü Lisey | 29 | 5 | 17.24 |
| 18 | Şirvan şəhəri 21 saylı şəhər tam orta məktəbi | 36 | 6 | 16.67 |
| 19 | Sumqayıt şəhəri 'İstedad' liseyi | 38 | 6 | 15.79 |
| 20 | Bakı şəhəri "Ankara Məktəbi" məktəb-liseyi | 83 | 13 | 15.66 |
| 21 | Tovuz rayonu Qədirli kənd tam orta məktəbi | 20 | 3 | 15.00 |
| 22 | Bakı şəhəri Heydər Əliyev adına lisey | 84 | 12 | 14.29 |
| 23 | Bakı şəhəri 240 saylı tam orta məktəb | 56 | 8 | 14.29 |
| 24 | Qazax rayonu 2 saylı şəhər tam orta məktəbi | 35 | 5 | 14.29 |
| 25 | Qazax rayonu Daş Salahlı kənd 2 saylı tam orta məktəbi | 21 | 3 | 14.29 |
| 26 | Ağdam rayonu Quzanlı kənd tam orta məktəbi | 21 | 3 | 14.29 |
| 27 | Şirvan şəhəri 16 saylı şəhər tam orta məktəbi | 42 | 6 | 14.29 |
| 28 | Bakı şəhəri 72 saylı məktəb-lisey | 58 | 8 | 13.79 |
| 29 | Bakı şəhəri 16 saylı Texniki-humanitar lisey | 22 | 3 | 13.64 |
| 30 | Hacıqabul 5 saylı şəhər tam orta məktəbi | 22 | 3 | 13.64 |
| 31 | Şəki rayonu Kiçik Dəhnə kənd 1 saylı tam orta məktəbi | 30 | 4 | 13.33 |
| 32 | Bakı şəhəri 34 saylı tam orta məktəb | 38 | 5 | 13.16 |
| 33 | Bakı Türk Anadolu liseyi | 38 | 5 | 13.16 |
| 34 | Naxçıvan şəhəri 14 saylı tam orta məktəb | 38 | 5 | 13.16 |
| 35 | Bərdə rayonu Texniki təmayüllü məktəb-lisey | 92 | 12 | 13.04 |

| № | Məktəb | Məktəb üzrə abituriyentlərin ümumi sayı | 600-dən yuxarı bal toplayan abituriyentlərin sayı | 600-dən yuxarı bal toplayanların faizi (məktəb üzrə abituriyentlərin ümumi sayına nəzərən) |
|---|---|---|---|---|
| 36 | Bakı şəhəri 283 saylı tam orta məktəb | 55 | 7 | 12.73 |
| 37 | Mingəçevir şəhəri Şəhər təbiət-riyaziyyat və humanitar elmlər təmayüllü liseyi | 55 | 7 | 12.73 |
| 38 | Bakı şəhəri Texniki humanitar lisey | 103 | 13 | 12.62 |
| 39 | Bakı şəhəri 194 saylı tam orta məktəb | 32 | 4 | 12.50 |
| 40 | Bakı şəhəri Humanitar fənlər gimnaziyası | 48 | 6 | 12.50 |
| 41 | Bakı şəhəri 289 saylı tam orta məktəb – “Zəngi” liseyi | 128 | 16 | 12.50 |
| 42 | Şəki rayonu 20 saylı şəhər tam orta məktəbi | 32 | 4 | 12.50 |
| 43 | Qəbələ rayonu Vəndam qəsəbə 1 saylı tam orta məktəbi | 48 | 6 | 12.50 |
| 44 | Şəki rayonu 7 saylı şəhər tam orta məktəbi | 49 | 6 | 12.24 |
| 45 | Naxçıvan şəhəri 5 saylı tam orta məktəb | 41 | 5 | 12.20 |
| 46 | Naxçıvan şəhəri Naxçıvan Qarnizonu tam orta məktəbi | 25 | 3 | 12.00 |
| 47 | Şəki rayonu Qoxmuq kənd tam orta məktəbi | 25 | 3 | 12.00 |
| 48 | Şəki rayonu 5 saylı şəhər tam orta məktəbi | 34 | 4 | 11.76 |
| 49 | Bakı şəhəri 70 saylı məktəb-lisey | 128 | 15 | 11.72 |
| 50 | Naxçıvan şəhəri 11 saylı tam orta məktəb | 26 | 3 | 11.54 |
| 51 | Ağdaş rayonu Texniki, təbiət və humanitar təmayüllü internat tipli gimnaziya | 35 | 4 | 11.43 |
| 52 | Gəncə şəhəri 24 saylı şəhər tam orta məktəbi | 37 | 4 | 10.81 |
| 53 | Tovuz rayonu Əyyublu kənd tam orta məktəbi | 28 | 3 | 10.71 |
| 54 | Goranboy rayonu Xanqərvənd kənd tam orta məktəbi | 29 | 3 | 10.34 |
| 55 | Kürdəmir rayonu 1 saylı şəhər tam orta məktəbi | 58 | 6 | 10.34 |
| 56 | Neftçala rayonu 4 saylı şəhər tam orta məktəbi | 29 | 3 | 10.34 |
| 57 | Salyan rayonu 2 saylı şəhər tam orta məktəbi | 29 | 3 | 10.34 |
| 58 | Mingəçevir şəhəri 10 saylı şəhər tam orta məktəbi | 49 | 5 | 10.20 |
| 59 | Bakı şəhəri Kimya-biologiya təmayüllü lisey | 69 | 7 | 10.14 |
| 60 | Bakı şəhəri 279 saylı tam orta məktəb | 50 | 5 | 10.00 |
| 61 | Bakı şəhəri 274 saylı tam orta məktəb | 90 | 9 | 10.00 |
| 62 | Göygöl rayonu Balçılı 1 saylı tam orta məktəb | 20 | 2 | 10.00 |
| 63 | Tovuz rayonu Qovlar şəhər tam orta məktəbi | 20 | 2 | 10.00 |
| 64 | Qəbələ rayonu Zarağan kənd 1 saylı tam orta məktəbi | 40 | 4 | 10.00 |
| 65 | Ucar rayonu 4 saylı şəhər tam orta məktəbi | 30 | 3 | 10.00 |
| 66 | Cəbrayıl rayonu Hovuslu kənd tam orta məktəbi | 20 | 2 | 10.00 |

*** Siyahıya abituriyentlərinin sayı 20-dən az olmayan təhsil müəssisələri daxil edilmişdir.**

# ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ GƏNCLƏRLƏ MÜSAHİBƏLƏR

**Ali məktəblərə qəbul imtahanlarında yüksək nəticə göstərənlərin təcrübəsi hər zaman ictimaiyyətin diqqət mərkəzində olan məsələlərdəndir. TQDK bunu nəzərə alaraq əvvəlki illərdə olduğu kimi cari ildə də hər ixtisas qrupu üzrə imtahanların nəticələrini açıqladıqca yüksək nəticə göstərən abituriyentlərin, eləcə də maksimal bal toplayanların sayı barədə də ictimaiyyətə geniş məlumat verib. Bildirilib ki, qəbul imtahanlarında 15 nəfər maksimal nəticə göstərib. I ixtisas qrupunda 7 nəfər, II ixtisas qrupunda 3 nəfər, III ixtisas qrupunda 3 nəfər, IV ixtisas qrupunda 2 nəfər 700 bal toplayıb.**

**Jurnalımız da öz ənənəsinə sadiq qalaraq ən yüksək nəticə əldə edən həmin abituriyentləri cəmiyyətə daha yaxından tanıtmaq, təcrübələrini öyrənmək və yaymaq məqsədilə onlar haqqında məqalə və müsahibələr hazırlayıb. Həmin materialları sizə təqdim edirik.**



***Nərmin Çingiz qızı Əliyeva Bakı Türk liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur. I ixtisas qrupu üzrə qəbul imtahanında 700 bal toplayaraq "ADA" Universitetinin "Kompüter mühəndisliyi" ixtisasına qəbul olub.***

-- ***Qəbul imtahanında maksimum nəticə göstərəcəyinə inanırdın, yoxsa bu, sənin üçün gözlənilməz oldu?***

-- Əslində, qəbul imtahanında yüksək bal toplayacağıma inanırdım. Ancaq 700 bal toplayacağımı gözləmirdim. Hazırlıq dövründə fikirləşirdim ki, görəsən, 700 bal toplaya bilərəmmi? Əsas istəyim 670-dən artıq bal toplamaq idi və bilirdim ki, bunun üçün daha çox çalışmalı, gündəlik dərslərimi yüksək səviyyədə öyrənməliyəm. Müntəzəm olaraq dərslərdə iştirak edib bütün tapşırıqları yerinə yetirirdim. Müəllim və valideynlərimin bu istiqamətdə mənə çox diqqət yetirməsi dərslərə olan marağımı daha da artırırdı. Sonda düşündüyümdən də çox bal toplayaraq istəyimə nail oldum.

– ***Nə üçün "Kompüter mühəndisliyi" ixtisasını seçmisən?***

– Bu ixtisası ona görə seçmişəm ki, onun əsasında riyaziyyat fənni dayanır. Mən də riyaziyyatı çox sevirəm. Həm də bu ixtisasın bugünkü nüfuzu və aktuallığı məni özünə çox cəlb edirdi. Seçim edərkən ailə üzvlərimin məsləhətləri də məni ürəkləndirdi. Bu ixtisas üzrə gələcəkdə yaxşı mütəxəssis olacağıma inanıram.

– ***Məktəbdə yaxşı oxumağınla, yoxsa hazırlıqlar sayəsində bu uğuru qazana bildin?***

– Hələ ibtidai siniflərdən başlayaraq dərslərimi yaxşı oxuyurdum. Demək olar ki, bütün fənlərdən yaxşı qiymətlər alırdım. Düzdür, tarix və coğrafiya fənlərini o qədər də yaxşı öyrənə bilmirdim. Amma biologiya fənnini çox sevirdim. Liseyə qəbul olduqdan sonra isə konkret seçdiyim ixtisas qrupuna aid olan fənləri daha çox oxuyurdum. Çünki liseydə bu fənlərə kifayət qədər vaxt ayrılırdı. Digər fənləri oxumağa az vaxtım qalırdı. Arada vaxt tapıb bədii ədəbiyyat da oxuyurdum.

Düzünü desəm, bu uğuru qazanmaqda məktəbdə yaxşı oxumağımın rolu olsa da, sistemli hazırlıqların rolu daha böyükdür. İnanmıram ki, dərsdənkənar hazırlıqlarda iştirak etmədən bu nəticəni əldə edə bilərdim.

***– TQDK-nın nəşr etdiyi jurnallar, müxtəlif test topluları və metodiki vəsaitlər abituriyentlərə yardımçı ola bilirmi?***

– Bəli. Əminliklə deyə bilərəm ki , TQDK-nın nəşr etdiyi vəsaitlər nəinki abituriyentlərə , həm də şagird və valideynlərə çox kömək edir. Öz təcrübəmdən deyə bilərəm ki, hazırlıq dövründə biliklərimi yalnız TQDK-nın nəşr etdiyi testlərlə sınayırdım. Həmçinin "Abituriyent" jurnalının müxtəlif saylarında təqdim olunmuş testlər, izah və tövsiyələrdən çox faydalanmışam. Müəllimlərimiz də o vəsaitlərdən geniş istifadə edirdilər. Mən TQDK-nın nəşr etdiyi siniflər üzrə test kitabçalarına və ayrı-ayrı fənlər üzrə test toplularına daxil olan bütün testləri işləmişdim. Bu vəsaitlərin yüksək bal toplamağımda çox böyük rolu olub. Ona görə abituriyentlərə məsləhət görərdim ki, hazırlıq prosesində TQDK-nın nəşr etdiyi vəsaitlərdən istifadə etsinlər.

***– Qəbul imtahanlarının təşkili və imtahan suallarının məzmunu barədə nə deyə bilərsən?***

– İmtahan çox yüksək səviyyədə təşkil olunmuşdu. İmtahan verdiyim binada abituriyentlərə lazım olan bütün şərait yaradılmışdı. Nəzarətçilər də imtahanı yaxşı idarə edirdilər.

Sualların məzmunu ilə bağlı onu deyə bilərəm ki, suallar nə sadə, nə də çox çətin idi. Bütün test sualları məktəb proqramı əsasında tərtib olunmuşdu. Proqramdankənar, dolaşıq suallara rast gəlmədim. Ancaq imtahanla bağlı öz rəyimi də bildirmək istəyirəm. İctimaiyyət arasında belə məlumat dolaşır ki, gələn ildən test blokuna bütün fənlərdən açıq tipli testlər salınacaq. Fikrimcə, bu, müəyyən çətinliklər yarada bilər. Düzdür, açıq tipli testlərə münasibətim yaxşıdır, ancaq imtahana bütün fənlərdən bu tipli testlərin salınması, məncə, onların həllinə çox vaxt tələb edər.

Cavab kartının kodlaşdırılmasına əlavə vaxt ayrılsa, daha yaxşı olar. Çünki cavab kartının doldurulması imtahanın ən çox diqqət tələb edən və vacib məqamlarından biridir.

***– Səncə, abituriyentin ixtisas seçimində valideynlərin rolu neçə olmalıdır?***

– Abituriyent oxumaq istədiyi ixtisası, əlbəttə, özü seçməlidir. Mən çox insanlar tanıyıram ki, valideynin istəyi və təkidi ilə ixtisas seçib. Ancaq qəbul olduqdan sonra oxumaq və gələcəkdə həmin ixtisas üzrə işləmək istəmir. Düzdür, əvvəllər mənim hansı peşəyə yiyələnməyim barədə evdə fikir ayrılığı var idi. Atam mənim hər hansı bir texniki ixtisasa, anam isə ingilis dili üzrə tərcüməçilik ixtisasına yiyələnməyimi istəyirdi. Sonda onlar bu seçimi mənim öz ixtiyarıma verdilər.Bütün valideynlərə məsləhət bilərdim ki, peşə seçimini övladlarının ixtiyarına versinlər. Çünki heç kim istəmədiyi ixtisas üzrə əsl mütəxəssis ola bilməz.

***– Qohumlarının arasında yüksək bal toplayan varmı, yoxsa bu uğura ilk olaraq sən imza atdın?***

– Böyük bacım 670 balla Azərbaycan Tibb Universitetinə daxil olub. Bu, mənim üçün də bir stimul oldu. Ondan sonra özümə daha çox inanmağa başladım və qarşıma məqsəd qoydum ki, mən də yüksək nəticə əldə edəcəyəm.

***Müsahibəni apardı: Taleh Məmmədkərimov***



***Arzu Ədalət qızı Həsənli Bərdə şəhəri, Akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü məktəb-liseyin məzunudur. I ixtisas qrupu üzrə qəbul imtahanında 700 bal toplayaraq Bakı Ali Neft Məktəbinin "Proseslərin avtomatlaşdırılması mühəndisliyi" ixtisasına qəbul olub.***

***– Necə fikirləşirsən, qəbul imtahanında yüksək nəticə göstərmək üçün xüsusi istedad lazımdır, yoxsa yaxşı oxumaq kifayətdir?***

– Abituriyent yüksək nəticə göstərməyi qarşısına məqsəd qoyarsa və bu istiqamətdə davamlı, sistemli çalışarsa, uğurlu nəticə əldə edə bilər. Xüsusi istedad nəticənin daha yüksək olmasını təmin edir. Gündəlik dərslərə mütəmadi olaraq hazırlaşmaq, müəllimlərə diqqətlə qulaq asıb, verilən tapşırıqları vaxtlı-vaxtında yerinə yetirmək lazımdır. Mən öz işimi məhz bu şəkildə qurmuşdum. İbtidai siniflərdən başlayaraq dərslərimi yaxşı oxuyurdum. Heç vaxt dərslərə məsuliyyətsiz yanaşmırdım. Yuxarı siniflərdə oxuyanda qarşıma konkret məqsəd qoydum ki, yüksək balla ali məktəbə qəbul olmalıyam. Bu məqsəd uğrunda yorulmadan çalışırdım. Bütün fikrimi dərslərə verirdim. Fikrimcə, yüksək uğur qazanmaq üçün ibtidai siniflərdən başlayaraq yaxşı oxumaq, yuxarı siniflərdə isə sistemli şəkildə hazırlaşmaq lazımdır.

***– Niyə məhz bu ali məktəbi və bu ixtisası seçdin?***

– Bakı Ali Neft Məktəbində oxumaq mənim böyük arzum idi. Bu ali təhsil ocağı yeni yarananda artıq məndə orada oxumaq istəyi baş qaldırdı. Öyrənmişdim ki, bu ali məktəbdə təhsil alan tələbələr üçün hər cür şərait yaradılıb. Rayondan gələn tələbələrin Bakıda qalması üçün də şərait yaradılıb. BANM-dəki keyfiyyətli, ingilisdilli, ödənişsiz təhsil imkanı, tələbələrin hərtərəfli inkişafı üçün yaradılan əlverişli şərait, gələcəkdə tələbələrin işlə təmin edilməsi, dərslərin nüfuzlu və peşəkar müəllimlər tərəfindən keçilməsi, bir sözlə, təhsil müəssisəsi hər bir cəhətdən məni özünə cəlb edirdi. Onu da bilirdim ki, bu təhsil müəssisəsinə qəbul olmaq üçün çox çalışmaq və yüksək bal toplamaq lazımdır. Bunun üçün də bütün gücümlə çalışırdım. Bundan başqa, ölkəmizdə neft-qaz sənayesinin əsas sənaye sahələrdən biri olmasını və bu sahədə yüksəkixtisaslı mühəndislərə böyük tələbat olduğunu düşünüb bu ixtisası seçdim.

***– Gələcəkdə 700 bal toplamaq istəyən abituriyentlərə hansı məsləhətləri verərdin?***

– İlk olaraq qarşılarına konkret məqsəd qoysunlar. Məqsədlərinə çatmaq üçün var gücləri ilə çalışsınlar. İbtidai siniflərdən başlayaraq dərslərini yaxşı oxusunlar. Heç bir dərsi növbəti günə saxlamasınlar. Sistemli şəkildə oxumaq lazımdır. Hər hansı bir dərsi "sabah oxuyaram" deyib təxirə salırsansa, sonra müəyyən çətinliklərlə üzləşirsən. Çünki sabahın da öz dərsi var. Məktəb proqramı bir zəncirin həlqələrinə bənzəyir. O həlqələrdən birini qırırsansa, demək, bütün zənciri qırmış olursan. Dərsləri sadədən mürəkkəbə doğru oxumaq lazımdır. Yüksək bal toplamaq istəyirsənsə, gərək bütün gücünü oxumağa verəsən.

***– Qəbul imtahanı necə təşkil olunmuşdu?***

– Çox yaxşı təşkil olunmuşdu. İmtahandan öncə qorxurdum ki, zalda müəyyən səs-küy olar və bu, mənə maneçilik törədər. Ancaq imtahan başlanandan sonra hər şeyin yüksək səviyyədə təşkil olunduğunun şahidi oldum. Nəzarətçilər və imtahan rəhbəri imtahanın gedişinə çox ciddi nəzarət edirdilər. Qısa desəm, TQDK-nın imtahan təşkili təcrübəsi çox yüksək səviyyədədir. Sualların məzmunu da yaxşı idi. Bütün suallar məktəb proqramına uyğun idi. Düzdür, imtahandan əvvəl həyəcanlı idim. Öz gücümə arxayın olsam da müəyyən qədər həyəcan var idi. Ancaq nəzarətçilərin mülayim, təmkinli davranışları sayəsində özümü ələ ala bildim. Öncə asan suallardan başladım ki, həyəcanım az da olsa keçsin. Məncə, bunun çox köməyi oldu.

*– Hazırlıq mərhələsində digər yoldaşlarından hansı xüsusiyyətlərinə görə fərqlənirdin?*

– Düzünü desəm, mən tanıdığım bir çox abituriyentlər kimi hazırlıq vaxtı dərslərə həvəssiz yanaşmırdım. İstirahətə və əyləncəyə, demək olar ki, vaxt ayırmırdım. Bütün vaxtımı dərslərə həsr edir və sistemli şəkildə çalışırdım. Bildiyim mövzuları da tez-tez təkrar edirdim ki, möhkəmlənsin. Hətta onu da deyim ki, mən aşağı siniflərdən yaxşı oxuduğum üçün hazırlıq prosesini çətinlik çəkmədən keçdim. Hazırlıqdan çıxıb evə gedəndə də yolda yoldaşlarımla ancaq dərsdən danışırdım. Hazırlıqlara çox vaxt piyada gedirdim. Marşrutla və ya maşınla getməyi sevmirdim.

*– Qəbul imtahanına hazırlaşan gənclərə valideynlərinin dəstəyi necə olmalıdır?*

– Ondan başlayım ki, bəzi valideynlər özlərinin həyata keçirə bilmədikləri arzularını övladlarının üzərində həyata keçirməyə çalışırlar. Bu, çox pis haldır. Unutmaq olmaz ki , gənclərin də öz arzu-istəkləri, özlərinə məxsus istedad və qabiliyyətləri, maraq dairəsi var. Valideynlər bunları nəzərə alınmalıdır. Bundan əlavə, valideynlər imtahana hazırlaşan övladlarını daha da həvəsləndirməlidirlər. Bəzən abituriyent sınaq imtahanında az bal toplayanda valideynlər onlara təzyiq edir və ya onların qarşısına konkret şərt qoyurlar. Bunların heç birinə yol vermək olmaz. Düzdür, abituriyenti nəzarətsiz buraxmaq da olmaz. Ancaq çox təzyiq etmək də düzgün deyil. Valideynlər abituriyentlərə imtahanqabağı daha çox psixoloji dəstək verməlidirlər ki, onlar imtahanda həyəcanlanmasınlar. Bu baxımdan, valideynlərimin mənə çox böyük dəstəyi olub.

*Müsahibəni apardı: Taleh Məmmədkərimov*



***Əli Allahverdi oğlu Allahverdiyev Naxçıvan MR, Şərur rayonu Z. Hacıyev adına Zeyvə kənd tam orta məktəbinin məzunudur. I ixtisas qrupu üzrə qəbul imtahanında 700 bal toplayaraq “Qafqaz” Universitetinin “Mexanika mühəndisliyi” ixtisasına qəbul olub.***

***-- Əli, qəbul imtahanlarında 700 bal toplamaq, yaqin sənin təhsil sahəsində ilk uğurun deyil.***

– Elədir. Mən bir sıra beynəlxalq olimpiadaların qalibi olmuşam. Bir çox bilik olimpiadalarında iştirak etmiş və qızıl, gümüş, bürünc medallar qazanmışam. Nigeriya Federativ Respublikasında Asiya və Afrikanın 18 ölkəsindən gələn şagirdlər arasında beynəlxalq fənn olimpiadası keçirilirdi. Yaxşı hazırlaşdığım üçün bütün suallara düzgün cavab verdim və mükafatlandırma mərasiminə Azərbaycan bayrağı ilə çıxdım. Bu, mənim ən böyük arzum idi. Daha sonra isə Türkiyədə keçirilən riyaziyyat üzrə olimpiadalarda 2 qızıl, 2 bürünc medal qazanmışam. Respublika üzrə riyaziyyat olimpiadasının da iştirakçısı olmuşam və gümüş medala layiq görülmüşəm. Bütün bu nailiyyətlər qəbul imtahanlarına hazırlıq məsuliyyətimi artırmışdı.

*– Bu gün abituriyentlərin bir çoxu imtahana hazırlaşmaq üçün repetitor yanına və ya hazırlıq kurslarına gedir. Maraqlıdır, sən qəbul imtahanına hansı formada hazırlaşırdın?*

– Mən heç bir hazırlıq kursuna və ya repetitor yanına getməmişəm. Buna ehtiyac duymurdum. Ailəmizin maddi vəziyyəti də buna imkan vermirdi. Məktəbdə təhsil alanda humanitar və texniki fənlər arasında heç bir fərq qoymurdum. Bütün fənləri bərabər səviyyədə oxusam da, riyaziyyat və fizika fənlərini daha çox sevirdim. Xoşbəxtlikdən də I ixtisas qrupunda

riyaziyyat və fizika fənləri əsas fənlər kimi götürülür. Qeyd edim ki, həmin fənlərdən həllini tapmaqda çətinlik çəkdiyim misal və məsələlərin üzərindən öyrənməmiş keçməzdim, bəzən 2-3 gün vaxt sərf edib həllini tapırdım. Qarşılaşdığım çətin mövzuları həmişə fənn müəllimlərimlə müzakirə edir, onların verdikləri izahatları diqqətlə dinləyir və təhlilini aparırdım. Bu, mövzuları tam mənimsəməkdə mənə çox kömək edirdi.

Qəbul imtahanına TQDK-nın qəbul proqramı əsasında hazırlaşırdım. Sınaq imtahanlarında öz bilik səviyyəmi müəyyənləşdirirdim. Bu zaman hansı testdə səhv edirdimsə, mövzunu yenidən oxuyurdum. Məktəbdənkənar hazırlıq üçün müəllim yanına getməyi vaxt itkisi sayırdım. Elə indinin özündə də belə düşünürəm.

*– Səncə qəbul imtahanına hazırlıq yalnız mütaliə, testlərlə işləmək və oxumaqdan ibarətdir?*

– Yox, elə deməzdim. İmtahanın texniki, texnoloji tərəflərinə də hazır olmalısan. Bu, imtahana hansı sənədləri aparmalısan, hansı əşyaları aparmaq olmaz, imtahan zalında davranış qaydaları, cavab kartının doldurulması qaydaları, ayrılmış vaxta qənaət deməkdir. İmtahanda əsas məsələlərdən biri, bəlkə də birincisi vaxtın düzgün bölünməsidir. Bütün sualların cavabını bilə bilərsən, amma onları cavablandırmağı 3 saata sığışdırmağı da bacarmalısan. Bunun üçün hazırlıq müddətində vaxtla işləməyi öyrənməlisən. İmtahan başa çatan kimi imtahan sənədləri yığılır. İmtahan zamanı abituriyentlərin ən çox qarşılaşdığı problemlərdən biri də düzgün cavabları bildikləri halda bunları cavab kartına səhv köçürmələridir.

*– Sənə qəbul proqramından əlavə, TQDK-nın daha hansı vəsaitlərinin köməyi olub?*

– TQDK-nın internet saytını və facebook sosial şəbəkəsindəki səhifəsini, demək olar ki, hər gün vaxt tapıb izləyir, yeniliklərlə tanış olurdum. "Abituriyent" jurnalları, test topluları, kurikulum əsasında qiymətləndirmə vəsaitləri hazırlıq dövründə mənim stolüstü kitablarım idi. Həmin vəsaitlər hazırlıq üçün dəyərli mənbələrdir. "Abituriyent" jurnalının 1-ci sayında verilən "Soruşun, cavab verək" layihəsindən qəbulla bağlı məni maraqlandıran bir çox suallara cavab tapdım.

*– Qəbul olduğun ixtisası öz arzunla seçdin?*

– Əlbəttə. Əgər abituriyent 700 bal toplayıbsa, onun seçdiyi ixtisas öz arzusu ilə reallaşır. Uşaqlıqdan texniki avadanlıqlara, avtomobillərə maraq göstərirdim. Atamın avtomobili var idi. Onun təmiri ilə nə vaxt məşğul olurdusa, mən atama kömək edirdim. Daha sonralar avtomobilimizdə hər hansı problem yarananda atam onun təmirini mənə tapşırırdı. Beləcə, bu sahəyə marağım getdikcə artırdı. İxtisas seçimi zamanı valideynlərimlə, müəllimlərimlə məsləhətləşdim və öz istəyimi bildirdim. Düzdür, müəllimlərimdən bəziləri "Kompüter elmləri" ixtisasını məsləhət gördülər. Amma yekunda hamısı mənim istəyimi bəyəndi. Çalışacağam ki, bu peşənin incəliklərinə daha dərindən yiyələnim. Gəncədə, Naxçıvanda avtomobil zavodları var. Düzdür, respublikamızda avtomobil istehsalı əsas sahə deyil, ancaq bu sahədə peşəkar mütəxəssislərə yenə də çox ehtiyac var. Bu sahədə yaxşı mütəxəssis olmaq üçün xarici dilləri bilmək də vacibdir. Odur ki, hazırda ingilis dili biliyimi zənginləşdirməklə məşğulam. Gələcəkdə təhsilimi Oksford Universitetində davam etdirmək niyyətindəyəm. Mexanika sahəsinə dair biliklər həmin universitetdə yüksək səviyyədə tədris olunur.

Müsahibə zamanı Əlinin öz ailəsinə, valideynlərinə dərin məhəbbəti açıq-aşkar hiss olunurdu. Hansı mövzudan danışırdıqsa, dərhal onları yada salır, valideynlərinin dəstəyini xatırlayır, qazandığı uğurlardan danışanda valideynlərinin buna necə sevindiklərini bildirir. Əligilin ailəsində ali təhsil alan olmayıb, kiçik qardaşı isə Naxçıvan şəhərində kollecdə oxuyur. Deyir ki, onun uğuru ailəsinin və ümumiyyətlə, nəslin ilk uğurudur. Atası bütün arzularını onun üzərində kökləyib. Çalışacaq ki, atasının bütün ümidlərini doğrultsun. Əli

məktəbli uşaqlara bəzi tövsiyələrini də bildirdi: "Uşaqlar, ilk növbədə məktəbin nə olduğunu anlamalıdırlar. Məktəb bilik verməklə yanaşı, şagirdə davranış qaydalarını, kollektivdə münasibət qurmağı, tərbiyəli olmağı, dostluğu da öyrədir. Sinifdə uşaqlar arasında liderlik daha çox dərslərinə fikir verən, yaxşı oxuyan, çalışqan uşaqlarda olmalıdır. Belə uşaqlar digər şagirdləri də öz arxasınca aparır və bu zaman sinif intizamlı və yaxşı oxuyanlardan ibarət olur. Bunun əksi olduqda isə vəziyyət çox acınacaqlı olur. Yaxşı olardı ki, uşaqlar pis vərdişlərdən, mənasız yerə vaxt keçirməkdən uzaq dursunlar, müəllimlərin, valideynlərin tövsiyələrinə əməl etsinlər, onların əziyyətini dəyərləndirsinlər".

Əli bu keyfiyyətlərin gələcəkdə cəmiyyətdə layiqli yer tutmaq üçün vacib şərt olduğunu bildirdi: "Cəmiyyət həmişə sağlam, ziyalı, bacarıqlı gənclərə üstünlük verir. Odur ki, gənclərimiz çalışmalıdırlar ki, gələcəyimizin sahibi olsunlar, sağlam, yetkin və vətənpərvər olsunlar."

*Müsahibəni apardı: Emin Məmmədov*



***İsa Elşad oğlu Məmmədli Bakı şəhəri, 163 saylı tam orta məktəbin məzunudur. I ixtisas qrupu üzrə qəbul imtahanında 700 bal toplayaraq Bakı Ali Neft Məktəbinin (BANM) "Neft-qaz mühəndisliyi" ixtisasına qəbul olub.***

***– İsa, ali məktəbə hazırlığından danış. Necə hazırlaşırdın?***

– 9-cu sinifdən hazırlaşmağa başladım. Yadımdadır, ilk dəfə sınaq imtahanına elə 9-cu sinifdə oxuyanda getdim, 136 bal topladım. 10-cu sinifdən sistemli olaraq bütün fənlərdən fərdi şəkildə müəllim yanına hazırlığa getdim. Fənlər arasında fizika və riyaziyyata daha çox vaxt ayırırdım. Çünki fizika dərsliyində mövzu çoxdur, testlər isə mövzuları tam mənimsəyəndə asan olur. Riyaziyyatda isə əksinə, mövzular az, testlər çətin olur. Ona görə də hər fənnə fərqli yanaşmaq lazımdır. Keçilən hər mövzunu dərindən oxuyub təhlil edirdim və həmin mövzuya aid testləri işləyirdim. Bir səhvim çıxanda belə, həmin mövzunu yenidən oxuyurdum. Dərslərimi əsasən, səhər saatlarında, necə deyərlər, beynimin təmiz vaxtı oxuyur, testlərlə isə günün istənilən vaxtı məşğul olurdum. Hazırlıq mərhələsində ən vacib şərt testlə işləmək vərdişinin olmasıdır. Məqsədi olan abituriyentin gərək boş vaxtı olmasın. Boş vaxt tapan kimi testlərlə işləsin. Bu, imtahanda adama çox kömək edir. Testlərin bütün tipləri ilə tanış olmaq lazımdır. Çünki imtahanda qarşına elə model test çıxar ki, onun həlli yolunu tapmaq kifayət qədər vaxt alar.

***– Təcrübə göstərir ki, bütün fənləri aşağı siniflərdən başlayaraq oxumadan yüksək nəticə göstərmək çətindir. Səndə necə oldu? Aşağı siniflərdən yaxşı oxumusan, yoxsa hazırlaşmağa başlayandan sonra?***

– Öz təcrübəmdən deyə bilərəm ki, aşağı siniflərdən başlayaraq bütün fənləri sistemli şəkildə oxumadan qəbul imtahanlarında 600-dən yuxarı nəticə göstərmək inandırıcı görünmür. Sirr deyil ki, şagirdlərin bir çoxu aşağı siniflərdə dərslərə gündəlik hazırlaşmır. Bu da qəbul imtahanlarına hazırlaşarkən müəyyən çətinliklər törədir. Sistemli və məqsədyönlü hazırlıq üçün müəllimdən və valideyndən də çox şey asılı olur, çünki şagirdin düzgün istiqamət götürməsi üçün onların dəstəyi vacibdir. Bu baxımdan, mən valideynlərimə, əsasən də atama borcluyam. O, mənə həmişə deyirdi ki, yaxşı mütəxəssis kimi yetişmək üçün bütün elmlərdən məlumatlı olmalısan. Məsələn, kimya fənnindən oxuyuruq ki, yüksək oktanlı benzin nədir, tərkibi nələrdən ibarətdir, kim kəşf edib və s. Amma tək kimyanı oxumaqla yüksək oktanlı benzinin sosial həyatımızdakı yerini, II Dünya müharibəsindəki əhəmiyyətini, beynəlxalq səviyyədə

ona olan tələbatı bilmək çətindir. Obyekt eyni olsa da, predmet fərqlidir. Hər bir fənnin özünə aid mövzu dairəsi vardır. Mənə gəldikdə isə marağım texniki fənlərə olsa da, bütün fənləri eyni səviyyədə oxuduğuma görə əlaçı olmuşam.

*– Hazırlıq dövründə abituriyentlər Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının fəaliyyətini, tətbiq etdiyi yenilikləri izləyir. Təbii ki, sən də belə abituriyentlərdənsən. TQDK-nın abituriyentlərlə iş prinsipi haqqında nə deyə bilərsən?*

– Qəbul qaydalarının, qəbul proqramlarının imtahanlara 5-6 ay qalmış açıqlanması, model testlərin təqdim olunması, imtahanlarda istifadə olunmuş testlərin məcmuələr şəklində nəşri təqdirəlayiqdir. Səhv etmirəmsə, cari ilin yanvar ayında 2015-ci ildə keçiriləcək imtahanların tarixləri, ərizə qəbulunun vaxtı açıqlandı. Bu da çox əhəmiyyətlidir. Öncədən işlərini düzgün qura bilir, prosesə hazır olursan. İxtisas seçiminə kömək üçün bal intervallarının, əvvəlki illərin ixtisaslar üzrə keçid ballarının və ali məktəblərin reytinq göstəricilərinin açıqlanması, ixtisas seçiminin qəbul imtahanlarından sonra aparılması abituriyentlərə ixtisas seçimi zamanı çox kömək edir. Bacım bu ilin qəbul imtahanlarında 361 bal toplamışdı. O həmin nəşrlərin köməyi ilə topladığı bala müvafiq düzgün ixtisas seçimi edə bildi və "Məktəbəqədər təlim və tərbiyə" ixtisasına qəbul oldu.

*– Təbrik edirik. Bacınız da bu il qəbul olub....*

– Sağ olun. Sinif yoldaşı olmuşuq. O, III ixtisas qrupunu seçdi. Riyaziyyatdan nisbətən zəif idi. Həmin fənni öyrənməkdə çətinlik çəkirdi. Ona görə də az bal topladı.

*– Seçdiyin ixtisasın üstünə gələk. Niyə məhz neft sahəsinə və Bakı Ali Neft Məktəbinə üstünlük verdin?*

– Ölkəmiz neft ölkəsidir. Nəinki ölkəmizin, hətta dünya iqtisadiyyatının mühüm hissəsini neft sahəsi təşkil edir. Ölkəmizin neft sənayesində peşəkar mühəndislərə ehtiyacı çoxdur. Bakı Ali Neft Məktəbinin yaradılması buna sübutdur. Gələcək karyeram üçün bu sahəni daha məqbul hesab etdim. Bakı Ali Neft Məktəbinə gəldikdə isə aldığım məlumata görə, orada tədris ingilis dilində aparılır, tədrisdə müasir texnologiyalar tətbiq olunur, təhsili başa vurduqdan sonra məzunlar işlə təmin olunur, xarici universitet və şirkətlərlə geniş əlaqələri var. Bu göstəricilərinə görə seçimimdə bu ali məktəbə üstünlük verdim. Buranı seçməyə öz istəyimlə yanaşı, ailə üzvlərimin və müəllimlərimin də dəstəyi az olmadı. İxtisas seçimi zamanı 15 ixtisas kodu üçün yer verilsə belə, mən sadəcə arzuladığım ali məktəbin, yəni BANM-in 3 ixtisas kodunu yazmaqla kifayətləndim.

*– Məktəblilərə nə məsləhət vermək istərdin?*

– Hər şeyin əsasında elm, təhsil durur. Müasir dövrdə elm, bilik olmadan cəmiyyətdə normal yer tutmaq çətindir. Məsləhət görərdim ki, dərslərini yaxşı oxusunlar, pis vərdişlərdən uzaq olsunlar, vaxtlarını boş yerə sərf etməsinlər. Özlərini vaxta yox, vaxtı özlərinə tabe etdirsinlər. Ölkəmizdə istedadlı gənclərə ehtiyacı böyükdür. Bütün sahələrdə istedadlı, bacarıqlı gənclər irəli çəkilir. Bu gün yüzlərlə gəncimiz xarici ölkələrin nüfuzlu ali təhsil ocaqlarında oxuyur. Yaradılmış belə imkanlardan istifadə edə bilmək üçün onlar hər cür imtahana hazır olmalıdırlar. Bütün bu uğurların mənbəyi isə məktəb təhsilidir. Mən məktəblilərə aydın gələcək arzulayıram.

***İsanın tarix müəllimi, həm də atası Elşad müəllimin dediklərindən...***

Bu il mənim iki övladım ali məktəbə qəbul olub. Bunun üçün normal, şəffaf imtahan şəraiti yaratdığına görə TQDK-ya təşəkkür edirəm. Gənclərimiz də yaradılmış bu imkandan uğurla istifadə edir. İsanın qəbul imtahanındakı nəticəsi göstərdi ki, mən ona oxumağın, bilik əldə

etməyin və ondan istifadənin əhəmiyyətini anlada bilmişəm. Övladlarımla münasibətimi hərtərəfli qurmuşam. Tərbiyələri ilə məşğul olanda bir ata, dərslərində müəllim, pedaqoq, digər məsələlərdə isə dost oluram. İsa lap aşağı siniflərdən başlayaraq dərslərini planlı şəkildə hazırlayır, ertəsi günün dərslərini tam hazırlayıb başa çatdırmayana qədər yatmırdı. Hər işdə çox məsuliyyətli görünürdü. Dərs oxuyan zaman yorulduğunu az hallarda deyirdi. Bütün fənləri bərabər şəkildə oxuyurdu, amma texniki fənlərə daha çox maraq göstərirdi. Dəqiq fənlərə aid məsələləri bir neçə dəfə həll edirdi və onların asan həll variantını tapmağa çalışırdı. Açığı deyim ki, bu, onun hobbisi idi. Ali məktəbə hazırlaşmağa başlayanda I ixtisas qrupunu seçmək fikrini mənə bildirdi və mən də onu dəstəklədim. Təbii ki, hazırlıq dövrü daha məsuliyyətli dövrdür. Mən onun qarşısına 700 bal toplamaq şərtini qoymamışdım, sadəcə, qəbul olmaq istədiyi ixtisasda müsabiqə vəziyyətinin yüksək olduğunu bildirmişdim. Hazırlığının səviyyəsini və sınaq imtahanlarında topladığı balları görəndə onun 670 baldan yüksək nəticə göstərəcəyinə inanırdım, amma 700 bal yox. Nəticə isə bizim üçün gözlənilməz oldu. ALLAH bütün valideynləri sevindirsin.

*Müsahibəni apardı: Emin Məmmədov*



***Nihad Natiq oğlu Abbasov Qubadlı rayon İsa Məmmədov adına Aşağı Mollu kənd tam orta məktəbinin məzunudur. I ixtisas qrupu üzrə qəbul imtahanında 700 bal toplayaraq Bakı Ali Neft Məktəbinin (BANM) "Neft-qaz mühəndisliyi" ixtisasına qəbul olub. Nihad məktəb illəri ərzində müxtəlif səviyyəli fənn olimpiadalarında iştirak edib. "İNEPO" beynəlxalq layihə olimpiadasının və "Sabahın alimləri" müsabiqəsinin iştirakçısı olub.***

**-- *Nihad, qazandığın böyük uğura görə səni təbrik edirik. Qəbul imtahanlarına, təbii ki, gərgin hazırlaşmısan, yuxusuz gecələrin də olub. İmtahandan sonra istirahət edə bildinmi?***

– Təbrikə görə çox sağ olun. İmtahandan sonra nəticələr çıxana qədər çox narahat idim. Bütün sualları bildiyimə əmin olsam da, mexaniki səhvlərə yol verəcəyimdən qorxurdum. Nəticələr bəlli olandan sonra isə zənglər gəlməyə başladı, təbrik edənlər, tədbirlərə dəvət, jurnalistlərlə müsahibələr və s. Söz yox ki, bunlar çox gözəl hislərdir. Amma etiraf edim ki, normal istirahətə vaxtım olmadı.

**– *İmtahanı necə xatırlayırsan?***

– Nə qədər hazırlaşsan da imtahanın adı ağırdır. Həyəcan da ki, öz yerində. Sınaq imtahanından öyrənmişdim ki, həyəcanı boğmaq üçün imtahan binasına kifayət qədər tez daxil olmaq lazımdır. İmtahan başlanana qədər şəraitə uyğunlaşmalısan ki, bütün fikrini testlər üzərinə yönəldə biləsən. Belə də etdim. İmtahan başlandıqdan sonra birinci asan hesab etdiyim fəndən başladım. Düzgünlüyünə yüz faiz əmin olduğum cavabların üzərində çox dayanmadım. İmtahanda vaxt bölgüsünün əsas amil olduğunu bilirdim. Bunu digər fənlərin sualları üzərində nəzərə aldım. Məlumdur ki, I ixtisas qrupuna daxil olan riyaziyyat, fizika, kimya fənlərində testlərin böyük əksəriyyəti məsələlərdən ibarət olur. Müəllimlərim mənə öyrətmişdilər ki, məsələlərin həlli üçün vacib olan onun şərtini diqqətlə oxumaqdır. Odur ki, digər sualları cavablandırdıqdan sonra məsələ tipli testləri bir daha gözdən keçirdim. Qaydalara görə işini yekunlaşdıran abituriyentlər imtahan başlandıqdan 2 saat sonra gedə bilərlər. Mən suallara cavab verib qurtarsam da sona qədər qaldım. İmtahandan sonra nəticələrimi «Space»

telekanalında yayımlanan "Abituriyent" verilişində təqdim olunan düzgün cavablarla yoxlayıb, bütün cavablarımın doğru olduğunu görəndə hədsiz dərəcədə sevindim.

*– 700 bal toplamağında təhsil aldığın məktəbin rolunu necə qiymətləndirirsən?*

– Təbii ki, məktəbdə tədrisin səviyyəsinin, müəllimlərin pedaqoji bacarığının yüksək olması şagirdlərin hazırlığına da çox kömək edir. Mənim təhsil aldığım məktəbdə də şagirdlər arasında oxumağa, ali məktəbə qəbul olmağa, imtahan nəticələrinin yüksək olmasına maraq çox böyük idi. Müəllimlərimiz bizə aşağı siniflərdən başlayaraq düzgün istiqamət götürməyi, dərslərə çox ciddi yanaşmağı tövsiyə edirdilər. Onu da qeyd edim ki, ibtidai sinif müəllimim öz nənəm olub. Bugünkü nəticələrimdə onun da xidmətləri çoxdur. Nənəm diqqət və qayğısını ibtidai təhsili başa vurduqdan sonra da bizdən əsirgəməyib.

Məktəbimizdə qəbul imtahanlarına hazırlaşan şagirdlər arasında rəqabət mühiti də böyük idi. Bunu da bizim müəllimlərimiz yaratmışdı. Sınaq imtahanlarının nəticələri sinfimizdə müəllimlərimizin iştirakı ilə ciddi təhlil olunurdu. Sonrakı proseslər bu cür yanaşmanın özünü doğrultduğunu göstərdi. Qəbul imtahanlarında göstərdiyimiz nəticələr də bunu təsdiq edir.

*– İmtahan suallarının çətinlik dərəcəsi barədə nə deyə bilərsən?*

– Sualların hamısına düzgün cavab versəm də, deməzdim ki, bütün suallar asan idi. Çətin suallar da çox idi. TQDK-nın bu il və ötən illərdə "Abituriyent" jurnalında təqdim etdiyi model testlərlə tanışlığım və sınaq imtahanlarında yığdığım təcrübə bu sahədə mənə çox kömək etdi.

*– Sınaq imtahanlarının sənə nə kimi köməyi oldu?*

– Belə düşünürəm ki, qəbula hazırlıq üçün sınaq imtahanları çox vacibdir. Qazandığın bilikləri qəbul imtahanından öncə yoxlamaq, zəif tərəfləri aşkar etmək, imtahan prosesinə öyrəşmək, imtahanda fənlər üzrə işləmə ardıcıllığını müəyyənləşdirmək, vaxt bölgüsünü düzgün qurmaq baxımından sınaq imtahanlarının rolu əvəzolunmazdır. Bundan başqa, çətin hesab etdiyim fənləri axırda işləməyi, cavab kartını doldurarkən diqqətli olmağı, açıq tipli testlərlə işləməyi və imtahan prosesinə aid digər halları sınaq imtahanlarında öyrəndim. 2015-ci ildə TQDK-nın keçirdiyi 4 sınaq imtahanının hamısında iştirak etdim və müvafiq olaraq, 656, 661, 690, və 686 bal topladım. Bu nəticələrim mənə 700 bal toplamağın mümkünlüyünü göstərdi. Ona görə də qəbul imtahanında çətinliyim olmadı.

*– Gələcək planların?*

– Təhsil sahəsində daha da inkişaf etmək, ali məktəbdə də səylə çalışıb fərqlənmək, imtahanlara yüksək səviyyədə hazırlaşmaq, Prezident təqaüdünü axıra qədər almaq, magistr təhsilimi xarici ölkələrdən birində davam etdirmək niyyətindəyəm.

*– Konkret hansı ölkədə?*

– Hələ tam qərara gəlməmişəm. Neft sahəsi üzə yüksəkixtisaslı mütəxəssis hazırlamaqda məşhur olan ölkələrdən birinin ali məktəbinin tələbəsi olmaq istərdim. Bunun üçün də xarici dil bilikləri vacibdir. İngilis dilini bilirəm, amma təkmilləşdirmək lazımdır. Rus dilini də öyrənmək istəyirəm. Zəngin dildir. Gələcək karyeramda bu dilin rolu böyük olacaq.

***Nihadın nənəsi, həm də ibtidai sinif müəlliməsi Mədinə Cabbarovanın dediklərindən...***

Mən heç vaxt şagirdlərim arasında fərq qoymamışam. Baxmayaraq ki, nəvəm mənim şagirdim idi, ona da başqa uşaqlara ayırdığım qədər vaxt ayırırdım. Əgər nəvəmə fərqli münasibətim olsaydı, şagirdlərin mənə inamını itirərdim. Bütün şagirdlərimə, o cümlədən də Nihadgi-

lin sinfinə ibtidai təhsilin əhəmiyyətini anlatmağa çalışırdım. İbtidai təhsili güclü olan şagirdin yuxarı siniflərdə o qədər də çətinliyi olmur. Bunu başa düşən uşaqlardan biri də Nihad idi. Dərslərə həmişə hazır gələr, ev tapşırıqlarını tam yerinə yetirərdi. Texniki fənlərə, əsasən də riyaziyyata marağı çox böyük idi. Riyazi məsələlərlə işləməyi daha çox sevir, məsələlərin həllinin asan yolunu tapmağa çalışır, bütün dərslərinə yaradıcı yanaşırdı. Əvvəllər iqtisadçı olacağını deyirdi. Sonra neft mühəndisi olmağı seçdi. Belə uğuru bütün şagirdlərə, onların müəllimlərinə, valideynlərinə arzulayıram. Mənim sevincim isə ikiqatdır.

*Müsahibəni apardı: Emin Məmmədov*



***Teymur Vüqar oğlu İsmixanov Bakı Türk liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur. I ixtisas qrupu üzrə qəbul imtahanında 700 bal toplayaraq "ADA" Universitetinin "Kompüter mühəndisliyi" ixtisasına qəbul olub.***

***– Məzunu olduğun liseyin şagirdləri hər il qəbul imtahanlarında yüksək nəticə göstərirlər. 700 bal toplayan abituriyentlərin də bir neçəsi bu məktəbin yetirmələridir. Göstərdiyin uğurlu nəticədə oxuduğun məktəbin rolunu necə qiymətləndirirsən?***

– Təhsil aldığım liseydə kifayət qədər bacarıqlı, istedadlı və çalışqan şagirdlər oxuyur. Məktəbin şagird kontingenti, demək olar, oxumağı qarşısına məqsəd qoymuş, məsuliyyətli, savadlı və intizamlı şagirdlərdən ibarətdir. Məktəb rəhbərliyi və müəllimlər də şagirdlərin yüksək səviyyədə təhsil alması üçün əllərindən gələni edirlər. Şagirdlər dərs oxumaqda, intizamlı olmaqda, məktəbin ictimai həyatında yaxından iştirak etməkdə bir-biri ilə yarışırlar. Təbii ki, yarış, rəqabət olan yerdə inkişaf da olur. Mən də yaxşı təhsil oxumaq üçün yaradılmış bütün imkanlardan istifadə edirdim. Çalışırdım ki, hərtərəfli təhsil almaq üçün düzgün istiqamət götürüm. Yuxarı sinif şagirdlərinin hamısı ali məktəbə hazırlaşdığından məktəbdə onlar üçün hazırlıq kursları təşkil olunmuşdu. Əlavə müəllim yanına getməyə ehtiyac yox idi. Bu il məktəbimizdən 3 nəfər 700 bal topladı. Bizim sinifdən hamı ali məktəbə qəbul oldu. Ən aşağı nəticə göstərən şagirdin balı 570 oldu. Mən belə bir liseydə təhsil almağımla qürur duyuram.

***– Ali məktəbə hazırlıq işlərini necə planlaşdırmışdın?***

– Qəbul imtahanlarına hazırlığa 10-cu sinifdən başladım. Gündəlik və həftəlik hazırlıq planımı sistemli şəkildə, cədvəl əsasında qururdum. Günün 15-16 saatını oxumaqla keçirirdim. Bütün fənlərə eyni səviyyədə, fizika fənninə isə digər fənlərdən bir qədər çox vaxt ayırırdım. Çünki fizika oxumaqla yanaşı, düşünməyi də tələb edir. Anam fizika müəllimidir. O, mənə həmin fəndən kömək edirdi. Keçilən dərslərə məsuliyyətlə yanaşırdım. Dərslərimi vaxtında hazırlayır, sabaha saxlamırdım. Çünki hər günün öz dərsləri vardı. Keçilən mövzunu öyrəndikdən sonra hazırlıq yoldaşlarımla birgə müzakirə edir, bir-birimizə suallar verir, izah edir, öyrəndiklərimizi paylaşırdıq. Həftə sonları, adətən, təkrarlar edir, test həll edirdim. Lazım olan kitabları və test kitabçalarını valideynlərim vaxtlı-vaxtında alırdı.

***– Qəbul imtahanına hazırlaşanda hansı vəsaitlərdən istifadə edirdin?***

– Əsasən, məktəb dərslikləri ilə hazırlaşırdım. Digər dərslikləri müəllimlərimin məsləhəti ilə

oxuyurdum. Bundan əlavə, TQDK-nın ali məktəbələrə hazırlaşanlara kömək məqsədilə nəşr etdiyi dərsliklər və test toplularından da istifadə edirdim.

*– Orta məktəbdə olduğu kimi, ali məktəbdə də əla qiymətlərlə oxuya biləcəksənmi?*

– Bəli, qarşıma belə bir məqsəd qoymuşam. Amma ali məktəb həyatı ilə, orada olan mühitlə, dərsliklərlə hələ tanış deyiləm. Bilirəm ki, "ADA" Universitetinə yüksək bal toplayan abituriyentlər qəbul olur. Rəqabət böyükdür. Onu da bilirəm ki, məni qarşıda ciddi və məsuliyyətli bir iş gözləyir. Çalışacağam ki, qiymətlərim əla olsun, orta məktəbdə olduğu kimi, burada da yaxşı oxuyum. "ADA" Universitetində belə qayda var: topladığın bala uyğun ödənişsiz oxuyursan, amma əla qiymətlərlə oxumadınsa, növbəti ildən ödənişli təhsil alırsan. Ona görə də məsuliyyətim ikiqatdır.

*– Seçdiyin ixtisasdan danışaq. Niyə "Kompüter elmləri"?*

– Bu ixtisası zamanın tələbinə görə seçdim. Kompüter artıq dünya elminə çevrilib. Cəmiyyətin bütün sahələrində layihələrin icrasını internetsiz, kompütersiz təsəvvür etmək çətindir. Bütün bunları, həmçinin ölkəmizdə bu sahənin mütəxəssislərinə olan tələbatı nəzərə alaraq bu ixtisası seçdim.

*– Magistratura təhsili almaq fikrin də varmı?*

– Magistratura təhsilimi xarici ölkələrdən birində davam etdirmək istəyirəm. Bu, sahənin elmi, tətbiqi, yenilikləri ilə tanış olmaq, ixtisası daha dərindən öyrənmək üçün çox vacib məsələdir.

*– Hansı ölkədə oxumaq istəyərdin?*

– Böyük Britaniyada. Orada təhsilin keyfiyyəti çox yüksəkdir. Dünya səviyyəsində nüfuzlu ali məktəbləri var. İngilis dilini bilirəm. Gələcək istəklərimi reallaşdırmaq üçün həmin dili mükəmməl öyrənməyi qarşıma məqsəd qoymuşam.

*– TQDK həyata keçirdiyi layihələrini internet vasitəsilə aparır. Təbii ki, qəbul kampaniyası zamanı sən də bu layihələrdən yararlanmısan. Komissiyanın təqdim olunan həmin elektron layihələri haqqında nə deyə bilərsən?*

– Mən bu layihələri bəyənirəm. Sənəd qəbulu zamanı ərizəmi heç bir yerə getmədən elektron şəkildə verdim. İmtahana getmək üçün tələb olunan sənədi, ixtisas seçimini, imtahan nəticələrimi, hansı ali məktəbə qəbul olduğumu internetdən öyrəndim. Özü də bu layihələrdən istifadə qaydaları aydın şəkildə izah olunduğu üçün rahatlıqla qəbul edilir. Daha xoşuma gələn isə həmin layihələrdən istifadə etmək üçün təlimatın "Abituriyent" jurnalının müvafiq saylarında dərc olunması idi.

*Müsahibəni apardı: Emin Məmmədov*



***Firuz Bayram oğlu Abduyev Bakı Türk liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur. I ixtisas qrupu üzrə qəbul imtahanında 700 bal toplayaraq Qafqaz Universitetinin "Kompüter mühəndisliyi" ixtisasına qəbul olub.***

***-- İmtahana hazırlaşmaq çox çətin idi? Boş vaxtların olurdu?***

-- Dərslərimi həmişə yaxşı oxuyurdum. Ona görə də hazırlıq prosesində o qədər çətinlik çəkmədim. Özüm də görürdüm ki, hazırlıq zamanı sanki məktəbdə keçilən dərsləri yadıma salıram, bir növ təkrar edirəm. Buna görə boş vaxtım çox olurdu. Həmin müddətdə əlavə heç nə ilə məşğul olmurdum, dincəlirdim. Valideynlərim buna görə mənə irad tuturdular ki, belə hazırlaşmaqla, az bal toplaya bilərəm. Ancaq mən öz gücümə inanırdım. Valideynlərimə bildirirdim ki, narahat olmayın, mən qarşıma məqsəd qoymuşamsa, ona mütləq çatacağam. Sonda belə də oldu. Mən rekord bal topladım.

***– Sınaq imtahanlarında da yüksək bal toplayırdın?***

– Bəli, nəticəm yüksək olurdu, ancaq 700 bal toplaya bilmirdim. İmtahandan çıxandan sonra səhv cavablarımın bəzilərini bilməyərəkdən, bəzilərini isə diqqətsizlikdən qeyd etdiyimi görürdüm. Ancaq öz üzərimdə işləyirdim. Bilmədiklərimi öyrənir və çalışırdım ki, növbəti imtahanda diqqətsizlik etməyim. Hələ 9-cu sinifdən başlayaraq sınaq imtahanlarında iştirak edirdim. Bunun sayəsində imtahan mənim üçün adi bir prosesə çevrilmişdi. Fikrimcə, abituriyentlər sınaq imtahanında iştirak etməklə öz biliklərini yoxlamaq və qəbul imtahanında neçə bal toplamağa qadir olduqlarını müəyyənləşdirmək şansı əldə edirlər. Mən də sınaq imtahanlarında yüksək bal topladıqdan sonra qəbul imtahanında da yaxşı nəticə göstərəcəyimə inanırdım.

***– Niyə məhz "Kompüter mühəndisliyi" ixtisasını seçmisən?***

– Düzünü desəm, bu ixtisası seçmək arzum olmayıb. Əvvəllər hansı ixtisası seçəcəyimi dəqiq müəyyən etməmişdim. Qəbul imtahanında iştirak edib yüksək nəticə əldə etdikdən sonra bu ixtisasın aktuallığını və populyarlığını nəzərə alıb onun üzərində dayandım.

***– Qəbul imtahanında uğur qazana bilməyən abituriyentlərə və abituriyent olmağa hazırlaşan şagirdlərə nələri tövsiyə edərdin?***

– Abituriyentlər müxtəlif qruplara bölünür. Əgər oğlanların 18 yaşı tamam olubsa, deyərdim, hərbi xidmətə getsinlər. Gələndən sonra fikirləri olsa, yenə imtahan verərlər. Digər abituriyentlərə isə tövsiyə edərdim ki, öz üzərlərində müstəqil çalışmağa vərdiş etsinlər. Qarşılarına konkret məqsəd qoysunlar, fikirlərini oxumağa, öyrənməyə yönəltsinlər. Vaxtlarını səmərəsiz keçirməsinlər. İmtahan zamanı həyəcanlanmasınlar. Məncə, istənilən abituriyent qarşısına məqsəd qoysa və bu məqsəd uğrunda çalışsa, öz arzusuna çata bilər.

***– TQDK-nın abituriyentlərə yaratdığı imtahan şəraiti səni qane etdi?***

– Bəli. Fikrimcə, çalışan , oxuyan hər bir abituriyent qəbul imtahanında uğurlu nəticə əldə edə bilər. Çünki qəbul imtahanı çox şəffaf keçirilir, abituriyentlərə öz bilik və bacarıqlarını nümayiş etdirmək üçün bütün zəruri şərait yaradılır. Qəbul imtahanından əvvəl sınaq imtahanlarının keçirilməsini də yüksək qiymətləndirirəm. Çünki sınaq imtahanında iştirak etməklə həm öz real bilik səviyyəni müəyyən edə bilirsən, həm də psixoloji baxımdan imtahana hazır olursan. Başqa sözlə, sınaq imtahanlarında iştirak etməklə bir növ təcrübə toplayırsan.

TQDK-nın abituriyentlər üçün yaratdığı əlverişli şəraitə bir nümunə kimi qəbul proqramının öncədən dərc olunmasını, model testlərin və bir çox digər vəsaitlərin nəşrini də qeyd edə

bilərəm. Yaxşı haldır ki, test kitabçaları mütəmadi olaraq təkmilləşdirilir, yenidən nəşr olunur. Mübahisə doğuran mövzulara dair sualların imtahanlara salınmamağı da müsbət haldır.

*– Səncə, abituriyentlər imtahanda öz bilik və bacarıqlarını tam nümayiş etdirmək üçün nələrə xüsusi fikir verməlidirlər?*

– İlk növbədə psixoloji baxımdan imtahana hazır olmalıdırlar. Bu, hər bir abituriyentin öz əlindədir. Əgər zərurət yaranarsa, bu zaman psixoloq məsləhətindən də yararlanmaq olar. İmtahan suallarını işləyərkən tələsmək də bəzən səhvlərə yol açır. Təqdim olunan sualları cavablandırmaq üçün ayrılmış vaxt yetərincədir. Sadəcə, bir az diqqətli olmaq, sualların şərtini diqqətlə oxumaq lazımdır. İmtahanöncəsi hazırlıqlarda valideynlərin də müəyyən rolu var. Bəzən abituriyent sınaq imtahanında az bal toplayır, bu zaman valideynlər övladlarına təzyiq edirlər. Məncə, əksinə, bu zaman valideynlər övladlarına qayğı ilə yanaşmalı, onları daha da həvəsləndirməlidirlər. Çünki uşaqlara təzyiq etməklə onu oxumağa yönəltmək yanlış addımdır. Bir də yaxşı olar ki, abituriyent imtahana özü tək getsin. Çünki imtahan başlamamış valideynlər çox həyəcanlı olur, bu da öz növbəsində abituriyentlərə mənfi təsir göstərir.Qısa desək, imtahanı adi bir proses kimi qəbul etmək lazımdır.

*– Maksimal nəticə əldə etməyinə kimlərin dəstəyi olub?*

– İlk dəstəyi valideynlərimdən, daha çox atamdan almışam. Çünki atam özü fizika müəllimidir. Fizika fənnini daha yaxşı mənimsəməyimdə atamın çox böyük rolu olub. Belə demək mümkünsə, ilk müəllimim atam olub. Maddi baxımdan xərclərimi qarşıladıqları üçün də valideynlərimə minnətdaram. Onlar mənim üçün hər cür şərait yaradıblar. Bundan başqa, hələ ibtidai sinifdən başlayaraq müəllimlərimin üzərimdə çox böyük zəhməti olduğunu qeyd etməliyəm. Sinif yoldaşlarımdan da az dəstək almamışam. Çünki bizim sinifdə belə bir mühit formalaşmışdı ki, şagirdlər həmişə bir-birinə dəstək olurdu. Kimin bilmədiyi bir şey olurdusa, dərhal bir-birimizdən öyrənirdik. Daim fikir mübadiləsi aparır, testlər üzərində birgə çalışırdıq.

*– Hazırlıqlara getməsəydin, məktəbdə öyrəndiklərin sayəsində 700 bal toplaya bilərdinmi?*

– Əslində, məktəbdə də zəif oxumurdum. Demək olar ki, bütün fənlərlə maraqlanırdım. Ancaq inanmıram ki , hazırlıqlara getməsəydim bu qədər bal toplaya bilərdim. Məktəbimizdə ixtisas qrupları üzrə kurslar təşkil olunmuşdu. Mən də o kurslara getdikdən sonra hiss edirdim ki , bilmədiyim məqamlar az deyil. Seçdiyim qrupa daxil olan fənlər üzrə sistemli hazırlaşmağım sayəsində maksimum bal toplaya bildim. Fikrimcə , repetitor xidməti olmadan da ali təhsil müəssisələrinə qəbul olmaq olar. Amma 700 bal toplamaq, çətin ki, mümkün olsun.

*Müsahibəni apardı: Taleh Məmmədkərimov*



***Elçin Ziyad oğlu Qasımov Gəncə şəhəri, İ.Qayıbov adına 1 saylı tam orta məktəbin məzunudur. II ixtisas qrupu üzrə qəbul imtahanında 700 bal toplayaraq "Qafqaz" Universitetinin "Mühasibat uçotu və audit" ixtisasına qəbul olub. Elçin eyni zamanda "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Türkiyənin Orta Doğu Texniki Universitetinin "İqtisadiyyat" fakültəsinə qəbul olub.***

***– İmtahan nəticəni necə qarşıladın?***

– İmtahandan xoş əhali-ruhiyyə ilə çıxdım, çünki bütün suallara düzgün cavab vermişdim. Mexaniki səhvlərə yol verməyim deyə, cavabları cavab kartına kifayət qədər diqqətlə, bir neçə dəfə yoxlayandan sonra köçürmüşdüm. İmtahandan sonra evdəkiləri və müəllimləri əmin etdim ki, 700 bal toplamışam. Bununla belə, nəticələrimi «Space» telekanalının "Abituriyent" verilişində elan olunan düzgün cavablarla yoxlayana qədər bir az narahat idilər. Fikirləşirdilər ki, birdən haradasa səhvə yol verərəm. Düzdür, onlar imtahandan öncə mənim 700 bal toplayacağıma inandıqlarını bildirir və bununla məni ruhlandırırdılar. Bununla belə imtahandan sonra hədəfin bir addımlığında yenə də təlaş keçirirdilər. "Abituriyent" verilişində nəticələrimin yoxlanmasından sonra bir daha 700 bal topladığıma əmin olduq. Bu xəbər qısa müddətdə qohumlarıma, müəllimlərimə, sinif yoldaşlarıma, dostlarıma çatdı. Telefonuma təbrik zəngləri gəlməyə başladı. Çox sevinirdik.

***– Sənin üçün ən dəyərli kimin təbriki oldu?***

– Ailəmizdə sevinc ikiqat idi. Bacım da imtahanda uğurlu nəticə göstərmişdi. Bizdən başqa, atamı da, anamı da təbrik edənlər çox idi. Bütün təbriklər mənim üçün əzizdir. Amma bunların içərisində ibtidai sinif müəllimim Jalə Əhmədovanın təbrikinin yeri xüsusi idi. O günləri xatırlayanda kövrəlməmək mümkün deyil. Axı o, bizə qələm tutmağı, oxumağı öyrətmişdi, insanpərvərliyi, vətənpərvərliyi anlatmışdı. Yadımdadır, dərsə hazır gəlməyən şagird görəndə çox həyəcanlanır və ona dərsə hazır gəlməyi, tapşırılan işə biganə qalmamağı tövsiyə edirdi. Onun bu cür mövqeyi bizdə məsuliyyət hissini artırırdı. İmtahanda göstərdiyim nəticənin köklərinin ibtidai təhsilimə bağlı olduğunu tərəddüdsüz qeyd edirəm.

***– Bacınız imtahanda 685 bal toplayıb. Bu da kifayət qədər uğurlu nəticədir.***

– Bacım məndən bir yaş böyükdür. Məktəbə bir il tez getdiyim üçün onunla sinif yoldaşı olmuşam. Dərslərimizi birlikdə hazırlayırdıq. Oxumaqda sanki bir-birimizlə yarışa girmişdik. Aşağı siniflərdə bacım dərsə yaxşı cavab verməyəndə mən, mən yaxşı cavab verməyəndə isə bacım valideynlərimizə gileylənirdi. Beləcə aramızda yarış gedirdi. Yuxarı siniflərdə oxuyanda isə artıq bir-birimizə dərslərimizdə kömək edir, mövzuları birlikdə işləyirdik. Hazırlaşanda da eyni müəllimlərin yanına getdik. Bacım məndən daha məsuliyyətli idi. Qəbul imtahanında coğrafiya fənnindən verilmiş məsələ tipli test tapşırığında çətinlik çəkib. Azərbaycan dili fənnindən də bir sualda səhv edib. İmtahan nəticələrimizin yüksək olmasında birlikdə hazırlaşmağımızın, oxuduğumuz mövzuları müzakirə etməyimizin, fikir mübadiləsi aparmağımızın, hətta aramızda olan sağlam yarışın, rəqabətin rolu az olmayıb.

***– Dərsdənkənar hansı kitabları oxumusan?***

– Uşaqlıqdan oxumağım valideynlərimin tam nəzarəti altında olub. Aşağı siniflərdə oxuyanda tətil zamanı atam mənə "Uşaq ensiklopediyası"nı oxutdururdu. Həmin kitabda materiklər, okeanlar, heyvanlar aləmi, tarixi şəxsiyyətlər, qədim qalalar haqqında məlumatlar var idi. Oxuduqlarımı atam məndən soruşardı. Yuxarı siniflərdə bədii ədəbiyyata marağım çox idi: istər Azərbaycan, istərsə də dünya ədəbiyyatına.

*– Qəbul imtahanlarına II ixtisas qrupu üzrə qatıldın. Bu, öz istəyinlə oldu?*

– İqtisadçı olmaq istəyimi reallaşdırmaq üçün II qrupu seçdim. Düzdür, əvvəllər hüquqşünas olmaq istəyirdim. Sonralar iqtisadiyyata marağım artdı, fikrimi dəyişdim. Atam, əmilərim iqtisadçıdırlar. Bu istək mənə, bəlkə də onlardan keçib. Bacım da II qrupu seçib. Amma bu qrupu seçməkdə bizə nə ailəmizin, nə də digər şəxslərin göstərişi, təzyiqi olmayıb.

*– Ali təhsil almaq üçün niyə məhz Türkiyə universitetini seçdin?*

– Mən Qafqaz universitetinə, bacım isə "ADA" universitetinə qəbul olub. Sonra dövlət hesabına xaricdə təhsil almaq üçün müvafiq dövlət qurumlarına müraciət etdik. Onlar da Türkiyənin Orta Doğu Texniki Universitetini məsləhət gördülər. Biz də oranı seçdik. Həmin universitet dünyanın ən tanınmış və nüfuzlu ali təhsil ocaqlarından biridir. Hərtərəfli təhsil almaq üçün hər cür şərait var. Çalışacağıq ki, oranın təhsil sisteminə uyğunlaşaq və oxuduğumuz müddətdə universitetin savadlı tələbələrindən olaq. Dövlətimiz bizim yaxşı təhsil almağımız üçün xeyli vəsait sərf edir. Biz də elə etməliyik ki, bu etimadı doğruldaq. Oradan yaxşı mütəxəssis kimi qayıdaq və gələcəkdə bizə tapşırılacaq işləri layiqincə yerinə yetirək.

*Müsahibəni apardı: Emin Məmmədov*



***Əli Rauf oğlu İsgəndərov Xırdalan şəhəri, B.Cəfərov adına 3 saylı tam orta məktəbin məzunudur. II ixtisas qrupu üzrə qəbul imtahanında 700 bal toplayaraq "ADA" Universitetinin "Beynəlxalq münasibətlər" ixtisasına qəbul olub. Məktəbdə oxuyarkən dəfələrlə fənn olimpiadalarında iştirak edib, rayon üzrə yüksək nəticələr göstərib. Kitabları həyatının ayrılmaz hissəsi hesab edir və mütəmadi olaraq mütaliə ilə məşğul olur. Bundan əlavə, idmana da vaxt ayırır, voleybol və basketbol oynamağı sevir.***

***– Əli, seçiminlə bağlı fikirlərini bizimlə bölüşə bilərsən?***

– Ali məktəbə hazırlaşarkən ən böyük arzum "ADA" Universitetinin "Beynəlxalq münasibətlər" ixtisasına qəbul olmaq idi. Əmin idim ki, bu universitetə və bu ixtisasa qəbul olacağam. Çünki məqsədim, özümə inamım var idi. Bunlar da mənə kömək oldu.

***– Məktəb göstəricilərin, qiymətlərin necə olub?***

– Məktəb təhsilinin də insan həyatında mühüm yeri vardır. Mən bütün siniflərdə əla qiymətlərlə oxumuşam. Aşağı siniflərdə oxuyarkən əlaçı olmağın nə olduğunu və gələcək üçün nə qədər əhəmiyyətli olduğunu bəlkə də başa düşmürdüm. Amma valideynlərimin məsləhətləri və özümün də çalışqanlığım təhsil bünövrəmin möhkəm olmasına təsir etdi.

***– 11 il səylə çalışdın və bu gün istədiyin nəticəni əldə etdin. Özündə zehni yorğunluq hiss edirsən, yəni 11 ilin yorğunluğu hələ də qalıb?***

– Oxumaq ən sevdiyim hobbimdir. Mən dərslərimi sevərək oxumuşam. Hansı fənni oxumuşamsa, özümü o aləmdə hiss etmişəm. Heç bir fənni və ya mövzunu məcbur oxumamışam. Ona görə də özümü heç vaxt yorğun hiss etməmişəm. Bəlkə də yorğunluq var, amma bu gün əldə etdiyim biliklər mənim həyatımı işıqlandırır və o yorğunluq hissini yox edir.

***– Qeyd etdin ki, bütün fənlərə eyni dərəcədə maraq göstərmisən. Ən çox sevdiyin fənn hansı***

***olub?***

– Bəli, bütün fənlər mənim üçün maraqlı idi. Amma coğrafiya fənnini xüsusi olaraq sevirdim, böyük maraqla, sevgiylə oxuyurdum. Onun mövzuları, təbiətə bağlılığım, ətraf aləm haqqında düşüncələrim bu fənni mənə daha çox sevdirdi.

***– Elə abituriyentlərə rast gəlinir ki, ali məktəbə qəbul olmaq üçün imtahana hazırlıq dövründə özlərini hər şeydən təcrid edirlər. Necə düşünürsən, bu, doğru üsuldur? Sən dərslərindən əlavə nə ilə məşğul olurdun?***

– İnsan hər bir işini planlı şəkildə həyata keçirməlidir. Mən gündəlik saatlarımı elə bölüşdürmüşdüm ki, həm dərslərimə, həm də istirahətə vaxtın qalırdı. Dərslərimlə paralel olaraq, əlavə məşğuliyyətlərim də var idi. İdmanla məşğul olurdum, basketbol və voleybol komandalarının tərkibində məktəblərarası yarışlarda iştirak edirdim. Həmçinin, "Xəmsə" və "Nə? Harada? Nə zaman?" kimi intellektual oyunlarda da iştirak edirdim. "Nə? Harada? Nə zaman?" oyununda respublika üzrə üçüncü yeri qazanmışdım. Fənn olimpiadalarında da fəal iştirakçı olmuş, rayon üzrə riyaziyyat fənnindən birinci yerə layiq görülmüşəm. Yüksək nəticə əldə etmək, tələbə adı qazanmaq üçün yalnız oxumaqla kifayətlənmək olmaz, vaxtı düzgün planlaşdırmaq, dincəlməyə də vaxt ayırmaq lazımdır.

***– Qazandığın bu uğurdan, səncə, kimlərə pay düşür? Kimlərə minnətdarlıq bildirmək istərdin?***

– Əlbəttə, bu, təkcə mənim uğurum deyil. İlk növbədə, ailəmə, valideynlərimə təşəkkür edirəm. Müəllimlərimə minnətdaram. Onların sayəsində zəhmət çəkdim, oxudum, bilmədiklərimi öyrəndim. Qazandığım bu nailiyyətdə rolu olan bütün müəllimlərimə borcluyam və onların inamını doğrultduğum üçün qürur hissi keçirirəm.

***–Qəbul imtahanına hazırlaşan abituriyentlərə nə məsləhət verərdin?***

– Vaxtlarından planlı şəkildə istifadə etsinlər. Biliklərini daha da dərinləşdirsinlər, dərs oxumaqla yanaşı, dincəlməyə də vaxt ayırsınlar. İnanın ki, vaxtı düzgün böldükdə hər şey qaydasında olur, yüksək bal toplamaq da mümkün olur.

***– Tələbəlik illərini necə təsəvvür edirsən, hansı yenilikləri gözləyirsən?***

–İnsan çalışmalıdır ki, həyatının hər mərhələsi maraqlı və yaddaqalan olsun. Mən tələbəlik illərimin maraqlı və uğurlu keçməsi üçün əlimdən gələni edəcəyəm. Tələbəlik illəri bizim bir şəxsiyyət kimi formalaşmağımıza kömək edəcək. Bu illərdə təkcə təhsil almaqla kifayətlənməyəcəyəm. İctimai yerlərdə də fəal olmağa çalışacağam. Artıq universitetin basketbol komandasına yazılmaq haqqında qərar qəbul etmişəm.

***Müsahibəni apardı: Leyla Əkbərova***



***İbrahim Əhməd oğlu Əhmədov Bakı şəhəri, 214 saylı tam orta məktəbin məzunudur. II ixtisas qrupu üzrə qəbul imtahanında 700 bal toplayaraq "ADA" Universitetinin "Beynəlxalq münasibətlər" ixtisasına qəbul olub. Riyaziyyat fənni üzrə Respublika fənn olimpiadasının qalibi olub.***

***– II ixtisas qrupunu özün seçmisən, yoxsa valideynlərinin məsləhəti ilə?***

– İxtisas qrupunu mən öz istəyimlə seçmişəm. Çünki hələ aşağı siniflərdə oxuyanda riyaziyyat və coğrafiya fənlərini çox sevirdim. Tarix fənni ilə də maraqlanırdım. Əslində, digər fənləri də yaxşı oxuyurdum. Ancaq inanırdım ki, daha yaxşı bildiyim fənlərin daxil olduğu II ixtisas qrupunu seçsəm, gələcəkdə uğur qazana bilərəm. Məsələn, kimya, fizika fənlərini də yaxşı oxuyurdum. Ancaq görürdüm ki, müəyyən məsələləri yaxşı həll edə bilsəm də, əslində, bu fənləri tam qavramıram. Həmin fənlərin daxil olduğu hər hansı ixtisas qrupunu seçsəydim, o qədər də uğurlu nəticə əldə edə bilməzdim. Bunları nəzərə alaraq məhz II ixtisas qrupunu seçdim.

***– Səncə, belə uğurlu nəticə əldə etmək üçün ibtidai sinifdən başlayaraq yaxşı oxumaq lazımdır, yoxsa bir neçə il hazırlıq kifayət edər?***

– Bir neçə il yaxşı hazırlaşmaqla da hər hansı uğurlu nəticə əldə etmək olar. Daha yüksək nəticə əldə etmək üçün ibtidai sinifdən başlayaraq yaxşı oxumaq lazımdır ki, yuxarı siniflərdə çətinlik çəkməyəsən. Məsələn, mən ali məktəbə hazırlaşanda müəllim məktəbdə verilən dərslərlə müqayisədə evə daha çox tapşırıq verirdi. Ancaq bu, mənə çətinlik yaratmırdı. Çünki o mövzuları yaxşı bildiyimə görə, onları bir növ təkrar edirdim. Əgər aşağı siniflərdə yaxşı oxumasaydım, təbii ki, çətinliklərlə üzləşərdim. Ona görə də, fikrimcə, daha yaxşı nəticə əldə etmək üçün məhz aşağı siniflərdən yaxşı oxumaq lazımdır.

***– Çox vaxt abituriyentlər yalnız öz seçdikləri ixtisas qrupuna daxil olan fənləri oxuyurlar. Digər fənlərlə ya az maraqlanırlar, ya da heç maraqlanmırlar. Səncə, bu doğru yanaşmadırmı?***

– Əslində, bütün fənləri yaxşı oxumaq lazımdır. Qeyd etdiyim kimi, mən II ixtisas qrupuna hazırlaşsam da, fizika, kimya, biologiya, ədəbiyyat fənlərinə də maraq göstərirdim. Fikrimcə, ancaq seçdiyin qrupa daxil olan fənləri yaxşı oxumaq, digər fənlərlə maraqlanmamaq düzgün deyil. Çünki insan bilikli olmaqla yanaşı, zəngin dünyagörüşünə də malik olmalıdır. Təkcə öz seçdiyin sahədən deyil, digər sahələrdən də müəyyən qədər məlumatlı olmalısan.

***– Abituriyentlərin bir çoxu yüksək bal toplamağı bəxtlə əlaqələndirirlər. Bu nə dərəcədə doğrudur?***

– Ola bilsin ki, bəxtin də müəyyən rolu var. Məsələn, bir tanışım sınaq imtahanında 700 bal toplamışdı. Ancaq qəbul imtahanında iki sualı səhv yazmışdı, yəni gözündən yayınmışdı. Bax bu cür səhvləri mən bəxtlə bağlayardım. Şəxsən mənim bəxtim gətirib ki, bu cür səhvləri etməmişəm. Əsas odur ki, gərək qarşına məqsəd qoyasan və ona çatmaq üçün ciddi çalışasan, əziyyət çəkəsən. Çəkdiyin əziyyətin nəticəsi yüksək bal olmaya da bilər. Heç bir halda hər şeyi bəxtlə əlaqələndirmək doğru deyil. Ümumiyyətlə, yüksək nəticə əldə etməyi yaxşı oxumaqla əlaqələndirirəm. Bunun üçün, qarşına məqsəd qoymalı, gələcək hədəfləri dəqiq müəyyənləşdirməli və bu istiqamətdə yorulmadan çalışmalısan.

***– Səndə ali təhsil almaq istəyi nə vaxtdan yaranıb?***

– Ali təhsil almağı hələ uşaqlıqdan arzulamışam. Aşağı siniflərdə oxuyanda bilirdim ki , əgər yaxşı oxuya, gündəlik dərsləri öyrənə bilirəmsə, deməli, ali təhsil müəssisəsinə də daxil ola bilərəm. Təbii ki, valideynlərim də bunu görür və mənə daim dəstək olurdular. Onu da etiraf

edim ki, valideynlərim məni heç vaxt dərs oxumağa məcbur etməyiblər. Əksinə, çox vaxt deyirdilər ki, bir qədər az oxu, istirahət də elə. Çünki mən dərsdən əlavə gecə saatlarında çoxlu bədii kitablar da oxuyurdum. Oxumağı çox sevirdim və inanardım ki, bu yolla getsəm, gələcəkdə uğur qazana bilərəm.

*– Sən artıq bu yaşında yüksək bir zirvəni fəth etmisən. Arzu edərdim ki, gələcəkdə daha yeni uğurlar qazanasan.*

– Gələcəkdə daha böyük uğurlara imza atmaq üçün var gücümlə çalışacağam . Çünki bu uğuru mən heç kimin təsiri olmadan əldə etmişəm. Bir halda ki, bu işə başlamışam, deməli, onu davam etdirməliyəm. Ümumiyyətlə, insan nə isə əldə edirsə, nəyəsə nail olursa , heç vaxt bununla kifayətlənməməlidir. Daim çalışmaq lazımdır ki , yeni-yeni uğurlar əldə edəsən. 700 bal toplamaq o demək deyil ki, mən artıq həyatda hər şeyə nail olmuşam. Məni qarşıda bundan da böyük sınaqlar gözləyir. Qarşıma məqsəd qoymuşam ki, universiteti əla qiymətlərlə başa vurub təhsilimi daha yüksək səviyyələrdə davam etdirim.

*– Gələcək planların barədə nə deyə bilərsən?*

– Düzünü desəm, hələlik gələcək planlarımı qurmamışam. Sadəcə, qeyd etdiyim kimi, qarşıma müəyyən məqsədlər qoymuşam. Çünki hələ yenicə bakalavriat səviyyəsinə qəbul olmuşam. Bir az bundan əvvəl abituriyent idim. Yeganə hədəfim və planım qəbul olmaq idi. İndi isə yaxşı təhsil almaq, uğurlarımı davam etdirmək barədə düşünürəm.

*Müsahibəni apardı: Taleh Məmmədkərimov*



***Xəyalə Rəvan qızı Əfəndiyeva Qəbələ rayonu, Vəndam qəsəbə 3 saylı tam orta məktəbin məzunudur. III ixtisas qrupu üzrə qəbul imtahanında 700 bal toplayaraq Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Hüquqşünaslıq" ixtisasına qəbul olub.***

***-- Xəyalə, artıq "Hüquq" fakültəsinin tələbəsisən. Qazandığın bu müvəffəqiyyət sənin gələcək həyat yoluna bir işıq saçacaq, gələcək işlərinin bünövrəsini təşkil edəcək. Uğurun böyükdür, sənin kimi gənclərlə hamımız qürur duyuruq.***

– Bir gənc kimi mən də ölkəmizin inkişafı və çiçəklənməsi üçün əlimdən gələni edəcəyəm. Hazırda yaşım və təcrübəm az olduğu üçün cəmiyyətimizə hələ ki, təhsil almaqla, biliklərimi artırmaqla xidmət göstərə bilərəm. Gələcəkdə isə təcrübə toplayaraq dövlətimizin tanıdılması, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün səylə çalışacağam.

*–Bir az aydınlıq gətirə bilərsənmi, nəyə görə məhz bu ali təhsil ocağını seçmisən? İxtisas seçiminə kimlərinsə təsiri olub?*

– Mən hələ qəbul imtahanına hazırlaşdığım illərdə ali məktəb seçimimi etmişdim. Qarşıma Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına qəbul olmağı məqsəd qoymuşdum. Qəbul olduğum akademiya ölkənin ən qabaqcıl təhsil ocaqlarından biridir. Hüquqşünas olmaq isə mənim uşaqlıq arzumdur. Hüquqşünas peşəsi haqqında uşaqlıq arzularım son illər daha da dəqiqləşdi. Ali məktəb və ixtisas seçimimi sərbəst etmişəm, valideynlərim də mənim seçimimə hörmətlə yanaşıblar.

*– 700 bal toplayan həmyaşıdlarınla görüşəndə nə kimi hislər keçirdin?*

– Bu görüşlər mənim üçün çox maraqlı oldu, hamımızın eyni nəticələri əldə etməyimiz elan olunanda, yəqin ki, eyni hisləri – qürur hislərini yaşamışıq. Onları yaxından tanıyanda daha çox fəxr etdim. Nə yaxşı ki, belə gənclərimiz var.

*– Necə düşünürsən, yaxşı hüquqşünas olmaq üçün nə etmək lazımdır?*

– Ümumiyyətlə, bu, elə bir ixtisasdır ki, gərək, bütün insanlara həssaslıqla yanaşasan, kimin haqlı, kimin haqsız olduğunu düzgün seçə biləsən, ədalətli qərar qəbul edəsən. Çalışacağam ki, hər kəsə qarşı hümanist mövqe tutum, ehtiyacı olan hər kəsə yaxından kömək edim. Yaxşı hüquqşünas olmaq, ümumiyyətlə, istənilən sahədə mütəxəssis olmaq üçün insan əlindən gələni etməlidir. Yaşından və ya təcrübəsindən asılı olmayaraq daim oxumalı, öyrənməli, təcrübə toplamalıdır. Xüsusilə, yaşadığımız internet əsrində, hər kəs müxtəlif saytlardan məlumatlar toplamalı, müxtəlif dillərdə yazılmış məqalələri oxumalı, araşdırmalı və işində onlara istinad etməyi bacarmalıdır.

*– Ali təhsil pilləsində özünü neçə bir tələbə kimi görürsən?*

–Ali məktəbdə özümü ixtisasımın sirlərinə dərindən bələd olmağa, biliklərimi daha da təkmilləşdirməyə, müxtəlif xarici dilləri öyrənməyə can atan bir tələbə kimi görürəm. Təhsil almaqla yanaşı, akademiyanın ictimai həyatında, müxtəlif tədbir, konfrans və yarışlarda da iştirak etməyi düşünürəm.

*– Xəyalə, müasir gənclərdə bəyəndiyin və bəyənmədiyin xüsusiyyətlər hansılardır?*

– Azərbaycan gənclərində ən çox bəyəndiyim keyfiyyət onların təhsilə meylliliyidir. Savadlı, təhsilli gənclərimiz kifayət qədərdir. Bu, məni çox sevindirir. Ancaq gənclərimizin müəyyən qismi internetə hədsiz dərəcədə aludə olur, vaxtlarının qədrini bilmədən sosial şəbəkələrdə vaxt itkisinə yol verirlər. İnternetdən səmərəli istifadə etmək lazımdır. Müasir gənclərimizdə bəyənmədiyim xüsusiyyət məhz budur.

*– Sən də gənclərin bir nümayəndəsisən. Maraqlıdır, səni xarakterizə edən əsas xüsusiyyətlər hansılardır?*

–Zarafatcıl, inadkar, səmimi, diqqətcil və humanistəm.

*– Əsəbi və ya yorğun vaxtlarında nə ilə məşğul olursan?*

– Yorğunluğumu və əsəbimi yalnız təmiz havada gəzməklə tənzimləyirəm. Hərdən isə musiqi dinləmək və ya kitab oxumaqla buna nail oluram.

*– Gələcək planların haqqında nə deyə bilərsən?*

– Yaxşı təhsil aldıqdan sonra ən böyük arzum dünya ölkələrini səyahət etməkdir. Çünki hər ölkənin tarixi, mədəniyyəti, adət-ənənəsi var. Müxtəlif ölkələrin fərqli xüsusiyyətlərini öyrənmək mənim üçün çox maraqlıdır. Bundan əlavə, gələcəkdə hüquqlarını bilməyən insanlara xüsusilə uşaqlara öz hüquqlarını öyrətməyi, bunun üçün xüsusi kurslar təşkil etməyi düşünürəm.

*Müsahibəni apardı: Leyla Əkbərova*



*Lalə Zəfər qızı Novruzova Saatlı rayonu 15 saylı tam orta məktəbin məzunudur. III ixtisas qrupu üzrə qəbul imtahanında 700 bal toplayaraq Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Hüquqşünaslıq" ixtisasına qəbul olub. Lalə fortepiano şöbəsi üzrə musiqi təhsili də alıb, Azərbaycan dili və ədəbiyyat fənləri üzrə olimpiadalarda dəfələrlə müvəffəqiyyət qazanıb.*

*-- Lalə, qazandığın bu müvəffəqiyyətin arxasında, sözsüz ki, müəyyən motivlər durur, yaxud bu uğurun müəyyən sirləri var.*

– Əlbəttə. Əgər insan həyatda uğur qazanmaq istəyirsə, onun xüsusi bir məqsədi varsa, o zaman çox çalışmalı, özünə inamlı olmalı, bütün bacarığını istəyinin gerçəkləşməsinə sərf etməlidir. Bu halda o nəyəsə nail olacaq.

*– Uğur əldə etməyin başqa sirri varmı?*

– Sadaladıqlarımdan əlavə, sağlam rəqabət də uğur əldə etməyə kömək edir. Mən elm və bilik arxasınca gedən, savadlı gənclərlə bəhsə girməyi çox sevirəm. Rəqabətli mühit inkişaf üçün lazım olan əsas şərtlərdən biridir. Amma hər gənc rəqabət hissinə malik olmur. Bəzən paxıllıq hissi ilə rəqabət hissini səhv salırlar. Elə gənclər var ki, təhsilə meyilli deyil, az oxuyur, vaxtını boş yerə sərf edir, amma oxuyan, uğur əldə edən gənclərə paxıllıqla yanaşır və bunu rəqabət hesab edirlər. Bu, rəqabət deyil. Rəqabət üçün sağlam mübarizə lazımdır. Mən də çox çalışan, sınaqlarda yüksək bal toplayan abituriyentlərlə bəhsə girdim. Qeyd edim ki, məhz bu xüsusiyyət mənim 700 bal toplamağıma kömək etdi.

*–Yəqin ki, gələcək təhsilində də, həyatında da uğurların çox olacaq. Amma indiyə qədər əldə etdiyin ən böyük uğur, məhz 700 bal toplamağın olub. Sən bunu qarşına məqsəd qoymuşdun?*

– Mən hüquqşünas olmağı arzulayıram. Təbii ki, yüksək nəticə bu ixtisasa qəbul olmağa yetərdi, amma mənim məqsədim ən yüksək bal toplamaq, Prezident təqaüdçüsü olmaq, tələbə adını qazananlardan fərqlənmək idi. Bu da ancaq 700 bal toplamaqla ola bilərdi.

*– Deməli, xarakterinin bir cəhəti də üzə çıxdı: fərqlənmək. Səncə, bu, eqoizm deyil?*

– Mən özümü sevən adamam. Məncə, hər bir normal adamda bu hiss var. Amma bu sevgi ifrat dərəcədə olmamalıdır. Ona görə də buna eqoizm deməzdim. Sadəcə, insan öz yaşıdlarından və ya ətrafındakılardan fərqlənməyə cəhd etməlidir. Axı hamı eyni olsa, cəmiyyət də maraqsız olar.

*– Səncə, hüquqşünas qadın hansı xüsusiyyətləri ilə fərqlənməlidir? Ümumiyyətlə, gələcəkdə özünü bir hüquqşünas kimi necə təsəvvür edirsən?*

– Məncə, hüquqşünas qadın həm savadlı, həm də möhkəm iradəli olmalıdır, düzgün və obyektiv mühakimə yürütməyi bacarmalı, ədalətli olmalıdır. Mən özümü məhz belə təsəvvür edirəm.

*– Gələcək planların barədə nə deyə bilərsən?*

– Mən gələcəkdə zəhmətimlə əldə edəcəyim gəlirlərdən xeyriyyəçilik məqsədilə istifadə etmək istərdim. Ehtiyacı olan hər kəsə kömək etmək, onlara əl tutmaq, maddi və mənəvi dayaq olmaq ən böyük arzumdur. Xaricdə təhsil almaq, gələcəkdə uğulu bir iş və xoşbəxt ailə həyatı qurmaq da gələcək planlarıma daxildir.

*– Səncə, insanın xarakterində başlıca müsbət cəhətlər hansılardır?*

*Sorğuda ümumilikdə 1495 nəfər abituriyent iştirak etmişdir. Onlardan 458 nəfəri I qrup, 283 nəfəri II qrup, 461 nəfəri III qrup, 293 nəfəri isə IV ixtisas qrupunun abituriyentləridir.*
*Sorğu anketində abituriyentlərin bioqrafik məlumatlarına dair bəndlərlə yanaşı, aşağıdakı suallar və hər suala aid bir neçə cavab variantı təklif olunmuşdur:*

**Qəbula necə hazırlaşmısınız**
○ müstəqil ○ repetitorla ○ hazırlıq kurslarında
İmtahan hazırlığınızın müddəti:
○ bir neçə ay ○ 1 ilə qədər ○ il yarım ○ 2 il ○ 2 ildən çox
Repetitorların sayı:_______

**Ali təhsil müəssisəsinə daxil olmaqda siz hansı amili rəhbər tutmusunuz (bir neçəsini seçmək olar)?**
○ ali təhsilin nüfuzu
○ yüksək maaşlı iş tapmaq arzusu
○ nüfuzlu ixtisas əldə etmək
○ hərbi çağırışdan rəsmi möhlət almaq
○ öyrənmək həvəsi
○ nə isə başqa bir şey

**İxtisas seçiminizə kim və nə təsir etmişdir?**
○ valideynlər
○ müəllimlər
○ dostlar
○ qohumlar
○ televiziya
○ «Abituriyent» jurnalı
○ ictimai rəy
○ təsadüfi
○ heç kim
○ başqa səbəb
○ cavab verməkdə çətinlik çəkirəm
○ internet

**Əgər yenidən qəbul olsaydınız, bu ixtisası seçərdinizmi?**
○ bəli ○ xeyr ○ cavab verməkdə çətinlik çəkirəm

**Son tədris ilində «Abituriyent» jurnalını oxumusunuzmu?**
○ mütəmadi ○ bəzi saylarını ○ oxumamışam

**Qəbul imtahanında yaradılan şərait sizi qane etdimi?**

**Qəbul imtahanlarının gedişində neqativ hallarla rastlaşdınızmı?**

**İmtahan zalında nəzarətçilər imtahanı necə idarə edirdilər?** Onların işini aşağıdakı dairələrdən birini qaralamaqla 5 ballıq şkalada qiymətləndirin.
○ 1 ○ 2 ○ 3 ○ 4 ○ 5
**İmtahana düşən sualların məzmunu barədə nə deyə bilərsiniz?**
○ proqram materiallarını əhatə edirdi ○ proqram materiallarını əhatə etmirdi
**Açıq tipli test tapşırıqlarına münasibətiniz**?
○ digər fənlər üzrə test blokuna da salınsın (səbəbini göstərin)
○ digər fənlər üzrə test blokuna salınmasın (səbəbini göstərin)
○ digər cavab

**İmtahan suallarının çətinlik dərəcəsi barədə fikriniz:**
○ çətin idi
○ çətin deyildi
○ sualların çətinlik dərəcəsini artırmaq lazımdır
○ sualların çətinlik dərəcəsini azaltmaq lazımdır

**İmtahan vaxtı barədə nə deyə bilərsiniz?**
○ ayrılan vaxt çox idi ○ ayrılan vaxt kifayət idi ○ ayrılan vaxt az idi

**İmtahan suallarının sayı barədə rəyiniz?**
○ çox idi ○ kifayət qədər idi ○ az idi

**Gələcək abituriyentlərə qəbula hazırlaşmaqla bağlı məsləhət və tövsiyələriniz:**

**Əlavə demək istədiyiniz fikirlər, arzular, təkliflər:**

## Yüksək ballı abituriyentlərin yuxarıda qoyulan anket suallarına cavablarının statistik təhlilinə diqqət yetirək

*"Qəbula necə hazırlaşmısınız?"* sualına cavablardan məlum olub ki, rəyi soruşulanların əksəriyyəti 1097 nəfər (73,38 %) imtahana repetitorla, 290 nəfər (19,4 %) hazırlıq kurslarında, 102 (6,82%) nəfəri isə müstəqil şəkildə hazırlaşmışdır. 8 nəfər bu suala cavab verməmişdir. Abituriyentlərin bir qismi hazırlığın bir neçə formasından istifadə etdiyini, yəni ya müstəqil şəkildə və repetitorla, ya da müstəqil şəkildə və hazırlıq kurslarında hazırlaşdığını bildirmişdir.

*"İmtahan hazırlığınızın müddəti"* barədə suala sorğuda iştirak edən abituriyentlərin yarıdan çoxu (900 nəfər – 60,2 %) qəbula "2 il" müddətində hazırlaşdığını göstərmişdir. Digər variantlar üzrə cavabların paylanması belə olmuşdur: 246 nəfər (16,5%) "1 ilə qədər", 172 nəfər (11,5%) "2 ildən artıq", 144 nəfər (9,6%) "İl yarım", 17 nəfər (1,14%) "bir neçə ay". 16 nəfər suala cavab verməmişdir. Qəbula hazırlıq müddətindəki bu müxtəliflik, bir sıra səbəblərlə bağlıdır. Abituriyentlərin çoxu hazırlıq müddətini öz fiziki, psixoloji, zehni imkanlarına, qabiliyyət və potensialına, eləcə də ailələrinin maddi vəziyyətinə uyğun olaraq müəyyənləşdirdiyini, başqa sözlə, bunun konkret amillərlə əlaqəli olduğunu qeyd ediblər.

*"Ali təhsil müəssisəsinə daxil olmaqda siz hansı amili rəhbər tutmusunuz (bir neçəsini seçmək olar)?"* sualının şərtinə əsasən abituriyentlər bir neçə cavab variantını seçə bilərdilər. Odur ki, bu suala cavablar müxtəlif kombinasiyalarda olmuşdur. Məsələn, bəzi seçim kombinasiyalarında üç cavab variantı – "Ali təhsilin nüfuzu", "Yüksək maaşlı iş tapmaq arzusu" və "Öyrənmək həvəsi" variantları qeyd edilmişdir. Digər cavab kombinasiyalarında "Yüksək maaşlı iş tapmaq arzusu" və "Öyrənmək həvəsi" amillərinə üstünlük verilmişdir. Abituriyentlərin xeyli hissəsi isə dörd cavab variantından ibarət kombinasiyanı seçmişdir: "Ali təhsilin nüfuzu", "Yüksək maaşlı iş tapmaq arzusu", "Nüfuzlu ixtisas" və "Öyrənmək həvəsi". Statistik müqayisə göstərir ki, bu suala cavablarda "Nüfuzlu ixtisas əldə etmək istəyi"nə üstünlük verilmiş və bu amil 936 dəfə qeyd edilmişdir. Cavablarda "Öyrənmək həvəsi" amili 512 dəfə, "Ali təhsilin nüfuzu" amili 483 dəfə, "Yüksək maaşlı iş tapmaq arzusu" amili 452 dəfə göstərilmişdir. Rəyi soruşulanlardan ali təhsil müəssisəsinə daxil olmaqda "Hərbi çağırışdan rəsmi möhlət almaq" amilini əsas götürənlər də olmuşdur. Onlar (7 nəfər) sorğu iştirakçılarının ümumi sayının 0,46%-ni təşkil etmişdir. Sorğu iştirakçılarının "Nə isə başqa bir şey" cavab variantını qeyd edənlər 77 nəfər olmuş (5,2%), 4 nəfər (0, 3%) isə bu suala cavab verməmişdir.

Sorğu iştirakçıları ***"İxtisas seçiminizə kim və nə təsir etmişdir?"*** sualına da təklif olunan cavab variantlarından iki, bəzən də daha artıq variantı, məsələn, "valideynlər və müəllimlər", "valideynlər və qohumlar", "valideynlər və ictimai rəy", "ictimai rəy və "Abituriyent" jur-

nalı" və s. kombinasiyalı variantları qeyd etmişlər. Bu kombinasiyalardan "İxtisas seçiminə həm valideynlərin, həm də müəllimlərin təsiri" cavab kombinasiyası üstünlük təşkil etmişdir. İxtisas seçiminə təsir edən amillərin anketlərdə qeydedilmə tezliyinə gəlincə, göstərmək lazımdır ki, valideynlərin ixtisas seçiminə təsir etməsi 592 dəfə (39,6%), müəllimlərin təsiri 201 dəfə (13,44%) qeydə alınmışdır. 534 nəfər (35,7%) seçimini müstəqil surətdə etdiyini bildirmişdir. 111 nəfər (7,42%) ixtisas seçimində ictimai rəyi nəzərə aldığını göstərmişdir. 66 nəfər (4,41%) ixtisası "Abituriyent" jurnalının müntəzəm olaraq dərc etdiyi materiallarla tanışlığa istinadən seçdiyini qeyd etmişdir. Bu suala cavab verərkən sorğu iştirakçılarından 38 nəfər (2,54%) dostlarının, 59 nəfər (3,9%) qohumlarının tövsiyələrinə əsaslandığını, 14 nəfər (0,94 %) televiziyanın, 25 nəfər (1,7%) internetin onlara təsir etdiyini qeydə almışdır. 17 nəfər (1,13%) təhsil alacağı ixtisası təsadüfi seçdiyini göstərmişdir, 69 nəfər (4,61%) ixtisas seçiminə "nə isə başqa səbəblər"in təsir etdiyini, 17 nəfər (1,13%) bu suala cavab verməkdə çətinlik çəkdiyini bildirmişdir. 34 nəfər sualı cavabsız qoymuşdur.

***"Əgər yenidən qəbul olsaydınız, bu ixtisası seçərdinizmi?"*** sualı əvvəlki sualla əlaqəlidir. Bu suala verilmiş cavabların təklif olunan cavab variantları arasında paylanma nisbəti göstərir ki, çox böyük əksəriyyət – 1163 nəfər (77,8%) öz ixtisas seçiminin düzgünlüyünə əmindir və bunu "bəli" cavabını seçməklə təsdiqləmişdir. Suala "xeyr" cavabını verənlər (80 nəfər – 5,35%) və "cavab verməkdə çətinlik çəkirəm" variantını qeyd edənlər də (134 nəfər – 9%) olmuşdur. Bu cür hallar və cavablar müxtəlif səbəblərlə bağlıdır: məsələn, "İxtisas seçimi ərizəsi"ndə 1-ci yerdə göstərdiyi ixtisasa və ya ali məktəbə daxil olmamaq, ödənişli təhsil formalı ixtisasa qəbul olmaq, yaxud ixtisas seçimi zamanı kənar təsir və müdaxilələrlə üzləşmək və s. Rəyi soruşulanlardan 118 nəfəri (7,9%) isə sualı cavalandırmaqdan imtina etmişdir.

***"Son tədris ilində «Abituriyent» jurnalını oxumusunuzmu?"*** sualına verilmiş cavablar da maraq doğurur. Sorğu iştirakçılarının 347 nəfəri (23,2%) jurnalı mütəmadi oxuduğunu, 998 nəfəri isə (66,8%) jurnalın bəzi saylarını izlədiyini bildirmişdir. Bütövlükdə isə rəyi soruşulanların 90%-i "Aituriyent" jurnalının oxucuları olduğunu qeyd etmişdir. 1495 nəfər respodentdən yalnız 143 nəfəri (9,6%) jurnalı oxumadığını bildirmişdir. 7 nəfər isə (0,46%) suala cavab verməmişdir. Cavablardan belə nəticə çıxır ki, "Abituriyent" jurnalı gənclər arasında kifayət qədər nüfuz və etibar qazanaraq, mötəbər və zəngin məlumat mənbəyi kimi onların məlumatlanması və maariflənməsində önəmli rol oynayır.

***"Qəbul imtahanında yaradılan şərait sizi qane etdimi?"*** sualını cavablandıranlardan 1380 nəfər (92,3%) yaradılan şəraitdən razı qaldığını bildirmişdir. Yalnız 48 nəfər (3,21%) suala "qane etmədi" cavabını vermişdir. 54 nəfər (3,61%) isə imtahandan qismən razı qaldığını bildirmişdir. Onlardan bəziləri anketdə cavabları əsaslandırmaq üçün kifayət qədər yer ayrılmasına baxmayaraq bundan yan keçmiş, öz rəylərinə hər hansı tutarlı səbəb göstərməmiş, izah-şərh verməmişlər. Bəziləri isə imtahandakı şəraitin onları qane etməməsini "otaqda nəzarətçilərin imtahana zəif nəzarət etməsi", "zalda artıq səs-küy olması", "başına gün düşməsi", "küçədən səs gəlməsi" və s. kimi səbəblərlə izah etmişlər. Amma təəccüblüdür ki, həmin abituriyentlər sonrakı əlaqəli sualı cavablandırarkən nəzarətçilərin işini yüksək qiymətləndirmişlər. Abituriyentlərin 13 nəfəri ( 0,9%) sualı cavablandırmaqdan imtina etmişdir.

Demək olar ki, eyni mənzərə ***"Qəbul imtahanlarının gedişində neqativ hallarla rastlaşdınızmı?"*** sualını cavablandırmada da müşahidə olunub. Böyük əksəriyyət (1375 nəfər – 92%) imtahanların gedişində neqativ hallarla rastlaşmadığını bildirmişdir. İmtahanda neqativ halla rastlaşdığını bildirənlər də olmuşdur (94 nəfər – 6,28%). Lakin burada da bəzi abituriyentlər öz mövqelərində ardıcıl olmamış, ziddiyyətli cavablar vermiş və yaxud neqativ halın nədən ibarət olduğunu dəqiq və konkret göstərməmiş, cavablarını faktlarla əsaslandırmamışlar, üstəlik də bu hal imtahan nəzarətçilərinə verilən qiymətlərdə adekvat əksini tapmamışdır. Respondentlərdən 26 nəfər (1,73%) suala cavab verməmişdir.

***Yuxarıda şərh edilən son iki sual ("Qəbul imtahanında yaradılan şərait sizi qane etdimi?", "Qəbul imtahanlarının gedişində neqativ hallarla rastlaşdınızmı?")*** və növbəti ***"İmtahan zalında nəzarətçilər imtahanı necə idarə edirdilər?"*** sualları məqsəd baxımından əlaqəlidirlər.

Abituriyentlərin bir qismi bu əlaqələrə fikir verməmiş və onların mövqelərindəki qeyri-ardıcıllıq, ziddiyyətli məqamlar da elə buradan irəli gəlmişdir. "İmtahan zalında nəzarətçilər imtahanı necə idarə edirdilər?" sualına həmin abituriyentlərin verdiyi qiymətləndirmə cavabları da deyilənləri təsdiqləyir. Belə ki, rəyi soruşulan 1495 nəfərdən yalnız 40-ı (2,7%) nəzarətçilərin işini mənfi qiymətləndirmiş, 5 nəfər (0,33%) suala cavab verməmişdir. Deməli, faktiki olaraq 1495 nəfərdən 1345 nəfər (90%) imtahan nəzarətçilərinin işinə müsbət qiymət vermişdir. Qiymətlərdən 882-i (59%) "əla", 463-ü (31%) "yaxşı" olmuşdur. Qalan 105-i (7,02%) "kafi" qiymət vermişdir. Nəzarətçilərin işinə mənfi qiymət verənlərin qiymətləndirmə prinsiplərində də ziddiyyətli cəhətlər özünü göstərir. Məsələn, abituriyentlər tərəfindən nəzarətçiyə irad tutulur, imtahanın gedişində neqativ hal olduğu qeyd edilir, amma qiymətləndirmədə ona "kafi", hətta "yaxşı" qiymət verilir. Yaxud da şəraitin qənaətbəxş olduğunu, neqativ hallarla rastlaşmadığını, nəzarətçilərə heç bir əsaslı iradları olmadığını bildirən bir neçə abituriyent onların işinə aşağı qiymət vermişdir. Bu mənada, verilən ən aşağı qiymətlərin meyarını müəyyənləşdirmək və izah etmək çətinlik yaradır.

***"İmtahana düşən sualların məzmunu barədə nə deyə bilərsiniz?"*** sorğusuna 1348 nəfər (90,16 %) müsbət cavab verərək sualların proqram materiallarını əhatə etdiyini qeyd etmişdir. Qalan 147 nəfərin ( 9,83 %) 26-sı (1,73%) sualların proqramı əhatə etmədiyini bildirmiş, 108 (7,22 %) nəfər qismən əhatə etdiyini qeyd etmiş, 13 nəfər (0,86 %) isə sualı cavabsız qoymuşdur.
Sorğuda abituriyentlərin **açıq tipli test tapşırıqlarına** münasibəti də öyrənilmişdir. Onların 518 nəfəri (34,64%) açıq tipli test tapşırıqlarına müsbət münasibət bildirmiş və fikirlərini belə əsaslandırmışlar ki, bu tipli testlər abituriyentlərin təfəkkürünü, düşüncə və mühakimə qabiliyyətini inkişaf etdirir, onları əzbərçilikdən uzaqlaşdırır, gənclərin biliklərini daha dəqiq və düzgün qiymətləndirməyə imkan verir. Bu fikirdə olan abituriyentlər açıq tipli test tapşırıqlarının digər fənlər üzrə də test blokuna salınmasını məqbul saymışlar, lakin onlardan bəziləri cavablarına onu da əlavə etmişlər ki, bu halda imtahanın vaxtının uzadılması məqsədəuyğun olar. Abituriyentlərdən 793 nəfər (53,04%) açıq tipli testlərin digər fənlər üzrə test blokuna salınmamasını qeyd etmişdir. Onlar bunun səbəbini, əsasən, vaxt amili ilə əlaqələndirmiş və bildirmişlər ki, açıq tipli testlərin həlli xeyli vaxt itkisinə səbəb olur. Onların fikrincə, açıq tipli testlər digər fənlər üzrə də test blokuna daxil edilərsə, onda imtahana ayrılan müddət müvafiq şəkildə nəzərə alınmalıdır. Göründüyü kimi, hər iki halda başlıca olaraq vaxt amili önə çəkilir və abituriyentlər bütövlükdə açıq tipli testlərin digər fənlər üzrə test blokuna salınmasının əleyhinə olmadığını ifadə edirlər. "Digər cavab" bəndini seçənlər 118 nəfər (7,9%) olmuşdur. Lakin onların, demək olar ki, heç biri öz mövqe və münasibətini əsaslandırmamışdır. 66 nəfər (4,41%) abituriyent bu sualı cavablandırmaqdan imtina etmişdir.

Anketin ***"İmtahan suallarının çətinlik dərəcəsi barədə fikriniz"*** bəndinə abituriyentlərdən 1004 nəfər (67,15%) sualların çətin olmadığını, 195 nəfər (13,04%) çətin olduğunu bildirmişdir. Sualların çətinlik dərəcəsinin artırılması və azaldılmasına münasibət belə olmuşdur: 128 nəfər (8,6%) sualların çətinlik dərəcəsinin artırılmasını, 159 nəfər (10,63 %) azaldılmasını təklif etmişdir. 9 nəfər ( 0, 6%) sualı cavablandırmamışdır.

***"İmtahan vaxtı barədə nə deyə bilərsiniz?"*** sualına da cavablar maraqlı olmuşdur. Abituriyentlərin 1264 nəfəri ( 84,54%) hesab edir ki, qəbul imtahanına ayrılan vaxt kifayət qədər idi. 64 nəfər (4,3%) abituriyent imtahanda test tapşırıqlarını cavablandırmaq üçün ayrılan vaxtın çox olduğunu, 161 nəfər (10,76%) az olduğunu bildirmişdir. 6 nəfər (0,4 %) suala cavab verməkdən imtina etmişdir.

Abituriyentlər imtahan suallarının sayı barədə də rəylərini bildirmişlər. Sorğuda iştirak edən 1495 nəfərin 1430-u (95,7%) sualların sayının kifayət qədər olduğunu, cəmi 45 nəfər (3,01%) çox olduğunu, 15 nəfər isə (1%) az olduğunu qeyd etmişdir. 5 nəfər ( 0,33%) suala cavab verməmişdir.

Anket sorğusunda yüksək nəticə göstərmiş gənclərə qəbul imtahanına hazırlıqla bağlı öz iş təcrübələri barədə fikirlərini, gələcək abituriyentlərə məsləhət və tövsiyələrini bildirməyə də imkan yaradılmışdı.

*Aşağıda qəbul imtahanlarında yüksək nəticə göstərmiş gənclərin imtahana hazırlıqla bağlı öz iş təcrübələri barədə fikirlərindən nümunələri təqdim edirik.*

# Bilik yarışı öncüllərinin gələcək abituriyentlərə məsləhət və tövsiyələri

## I qrup

*Məmmədli İsa Elşad oğlu (700 bal)*

Dərslərə məqsədyönlü, planlı, sistemli şəkildə hazırlasınlar. İstirahət və dərs vaxtlarını düzgün bölsünlər. Əmin olsunlar ki, bu qaydada hazırlıq uğur gətirəcək.

*Abbasov Nihad Natiq oğlu (700 bal)*

Fikrimcə, uğurlu nəticə əldə etmək üçün əsas bilik mənbəyi məktəb təhsilidir. X-XI siniflərdəki hazırlıq qazanılan biliklərin artırılması və möhkəmləndirilməsi məqsədi daşımalıdır. Odur ki, məktəb dərslərinə gündəlik hazırlaşmaq lazımdır. Yalnız repetitorun köməyi ilə yüksək nəticə əldə etməyə ümid etmək olmaz.

*Allahverdiyev Əli Allahverdi oğlu (700 bal)*

Sistemli şəkildə hazırlaşsınlar, dərslərə həvəslə yanaşsınlar.

*Müslimov Azər Məmmədhüseyn oğlu (695 bal)*

Qəbul imtahanına hazırlıq zamanı çox oxumaqla yanaşı, yaxşı qidalanmaq, normal yatmaq da lazımdır.

*Namazov Nadir Mehdi oğlu (695 bal)*

Aşağı siniflərdən dərslərə ciddi yanaşsınlar. "Gələcəkdə repetitor yanına gedəcəyəm" deyib dərs oxumaqdan yayınmasınlar. Əgər məktəb təhsili müddətində yaxşı oxusalar, onlar üçün yüksək bal toplamaq daha asan olar.

*Yusifov Elgün Eldar oğlu (695 bal)*

Qəbula hazırlıq prosesində ən önəmli məsələ abituriyentin özü üçün rejim qurmasıdır. Dərsdən yayınmamaq üçün sosial şəbəkələrdən, mobil telefonlardan uzaq durmaq, əyləncələri arxa plana keçirmək lazımdır. İdmanla məşğul olmaq isə mütləqdir.

*Zəkizadə Nərmin Nizami qızı (691 bal)*

Qəbula yalnız məktəbin son siniflərində hazırlaşmaqla yüksək nəticə əldə etmək mümkün deyil. Bunun üçün aşağı siniflərdən başlayaraq dərslərə ciddi, məsuliyyətlə yanaşmaq, bütün dərs tapşırıqlarını yerinə yetirmək, testlərlə işləməyə daha çox vaxt ayırmaq lazımdır. TQDK-nın təşkil etdiyi sınaq imtahanlarında iştirak etməyi, "Abituriyent" jurnalının nəşr etdiyi vəsaitlərdən faydalanmağı məsləhət görürəm.

*Quluzadə Gülnarə Kamal qızı (677 bal)*

Gələcək abituriyentlərə məsləhətim odur ki, özlərinə inamlı və qətiyyətli olsunlar. Qəbul imtahanında yüksək nəticə göstərmək üçün, ilk növbədə özlərinə üç şeyi aşılasınlar: 1. inam; 2. səbir; 3. məqsəd. Əziz abituriyentlər, qəbul imtahanı gününə qədər çalışsanız, zəhmətinizin bəhrəsini görəcəksiniz.

*İbrahimli Fərid Firşad oğlu (649 bal)*

Vacib olan çox oxumaq yox, keyfiyyətli oxumaqdır. Qəbulqabağı nəticələriniz aşağı düşsə və yaddaşınızda durğunluq hiss etsəniz, həvəsdən düşməyin. Belə bir hal məndə də olmuşdu. Bu zaman müəyyən vaxt ərzində özünüzə istirahət verin, təmiz havada piyada gəzin. Bu keçici bir durumdur, ruhdan düşməyin. Ən önəmlisi isə özünüzə inamınızı itirməyin.

*Fərziyeva Gülgün Hatəm qızı (636 bal)*

Ən əsası odur ki, qarşılarına aydın məqsəd qoysunlar, mütəmadi çalışsınlar. Bir müəllimim həmişə deyirdi: "600 bal toplamaq üçün bilik lazımdır, 600-dan yuxarı nəticə göstərmək üçün isə daha üç şeyin – diqqət, şans və psixoloji durumun yaxşı olması gərəkdir".

## II qrup

*Musazadə Fidan Ruslan qızı (681 bal)*

Hazırlıq prosesində sistemli oxumaq lazımdır. Öyrənilənləri mütəmadi təkrar etmək vacibdir. İmtahan zamanı isə, gərək, özünü itirməyəsən. Test tapşırıqlarının şərtini diqqətlə oxuyub, sonra cavablandırmaq lazımdır.

*İsmayılov Fərid Elxan oğlu (680 bal)*

Hazırlıq müddətində vaxtınızı düzgün bölüşdürün. Bu günün işini sabaha saxlamayın. İmtahanda isə bilgilərinizi maksimum ortaya qoyun, təmkinli, soyuqqanlı, diqqətli və iradəli olun.

*Nəzirov Mahir Müqəddəs oğlu (677 bal)*

Aşağı siniflərdən başlayaraq dərslərə ciddi, məsuliyyətlə yanaşın. Qəbula hazırlıq mərhələsində ciddi rejimlə çalışın. Çoxlu test tapşırıqları həll edin. Qəbul imtahanına 2-3 gün qalmış isə mümkün qədər özünüzü yormayın, çoxlu dincəlin.

*Bağırov Kənan Yəhya oğlu (677 bal)*

Səbir, iradə və əzm abituriyentlərin öz məqsədlərinə nail olmasına kömək edir.

*Məmmədli Yusif Tapdıq oğlu (675 bal)*

Qəbul imtahanına hazırlıq gərgin bir prosesdir. Həyatınızın bu məsuliyyətli dövründə vaxtınızın qədrini bilin, ondan maksimum dərəcədə səmərəli istifadə edin. Çünki bu prosesdə vaxtın neçə keçdiyini bilmək, hiss etmək olmur. Ona görə çalışın vaxtınızı hazırlıq müddətində düzgün böləsiniz.

*Həsənova Aysel Arzu qızı (674 bal)*

Gələcək abituriyentlərə dərslərinə ciddi hazırlaşmağı, daim yeni biliklər qazanmağa həvəs göstərməyi tövsiyə edirəm.

*Kərimli Ülkər Mübariz qızı (674 bal)*

Gələcək abituriyentlərə çox çalışmağı, hər gün, hər saat nə isə öyrənməyi məsləhət görürəm. Yalnız davamlı, sistemli, bütün imkanlarını səfərbər etməklə çalışmaq sayəsində qarşıya qoyulan məqsədə nail olmaq olar. Dərs oxumaqdan, öyrənməkdən, test tapşırıqlarını həll etməkdən zövq almağı, həvəslə işləməyi tövsiyə edirəm.

*Mehdizadə Büllur Azər qızı (669 bal)*

Müntəzəm olaraq sınaq imtahanlarında iştirak edin. Özünüzə, hazırlıq səviyyənizə, potensial imkanınıza inanın.

*Məhərrəmov Arif Rahib oğlu (666)*

İmtahanda uğur qazanmaq üçün tənbəllikdən uzaq olmaq, dərslərə müntəzəm, keyfiyyətli hazırlaşmaq lazımdır. İlk sınaq imtahanlarında yaxşı nəticə göstərməsəniz, bunu özünüzə dərd etməyin. Səhvlərinizdən nəticə çıxarın, bilmədiklərinizi öyrənin, bildiklərinizi təkrarlayın.

*Xəlfəquliyev Həmid Elçin oğlu (665 bal)*

Qarşılarına aydın məqsəd qoysunlar və məqsədə doğru inamla addımlasınlar. Qəbul imtahanına hazırlıq müddətində fikirlərini daha çox dərslərə yönəltsinlər. İmkan olarsa, dərsdənkənar məşğələlərə, əyləncələrə də vaxt ayırsınlar. İmtahana hazırlıq zamanı səmərəli vaxt bölgüsü aparsınlar, sistemli çalışsınlar. Müəllimdən çəkinməmək, ondan bütün sualları soruşub öyrənmək lazımdır.

*Qafarov Əvəz Əzizağa oğlu (665 bal)*

Hər bir abituriyentin bilik səviyyəsinə, mövzuları dərketmə qabiliyyətinə görə öz hazırlıq metodu olur. Mənim də öz hazırlıq tərzim, proqramım vardı. Qəbula hazırlıq zamanı aşağıdakı şərtlərə riayət edirdim: həvəslə oxuyur, öyrənir, əzm, iradə nümayiş etdirir və sistemli çalışırdım. Vaxtı da özüm üçün əlverişli bir tərzdə bölürdüm.

*Pəsiyeva Rübabə Sərvaz qızı (631 bal)*

Qəbul imtahanına hazırlaşmaqla bərabər, məktəbin fəal şagirdlərindən olsunlar, intellekt yarışlarında, olimpiadalarda iştirak etsinlər.

*Məmmədov Xəzər Araz oğlu (622 bal)*

Qəbul imtahanına hazırlıq müddətində özünüz üçün ciddi qrafik tərtib edin. Vaxtınızdan səmərəli və məhsuldar şəkildə yararlanın. Keçilən mövzuları vaxtlı-vaxtında öyrənin. Qəbul imtahanı ərəfəsində psixoloji hazırlığa da önəm verməyinizi tövsiyə edirəm.

*Məlikova Aygün İlqar qızı (618 bal)*

Məsləhət görürəm ki, proqramdakı mövzulara aid materialları ətraflı oxusunlar, dərindən mənimsəsinlər. Bilmədikləri və ya qaranlıq qalan mövzuları araşdırsınlar, müəllimlərdən soruşub öyrənsinlər. Mövzuları tam dərk etdikdən sonra test tapşırıqları ilə işləsinlər. İstirahət üçün də vaxt ayırsınlar, ancaq bu vaxtı telefon, televizor və sosial şəbəkələrdə yox, dostları, ailələri ilə birlikdə keçirsinlər.

*Əsgərli Rəfi Fuad oğlu (610 bal)*

Tövsiyəm odur ki, özləri üçün proqram tutsunlar, dərslərini bu proqrama uyğun hazırlasınlar, çoxlu test tapşırıqları həll etsinlər. Sınaq imtahanlarına mümkün qədər çox getsinlər.

*Pominova Yekaterina Konstatinovna (607 bal)*

Şəxsi təcrübəmdən çıxış edərək məsləhət görərdim ki, planlı hazırlaşsınlar, diqqətli olsunlar, öyrəndiklərini təkrarlasınlar, məktəb dərslərinə həmişə hazırlıqlı olsunlar.

## III qrup

*Məmmədova Günay Şahmar qızı (669 bal)*

Mən uşaqlıqdan hüquqşünas olmaq istəmişəm. Bu arzuya çatmağın yeganə yolunu isə yaxşı oxumaqda, yaxşı təhsil almaqda görmüşəm. Bunu hələ aşağı siniflərdən dərk etmişəm. Dərslərimə həmişə məsuliyyətlə yanaşmış, öz üzərimdə ciddi çalışmışam. Onu da deyim ki, iki fənn üzrə müstəqil hazırlaşmışam. Digər fənlərdən isə repetitor yanına getmişəm. Bütün bunları deməklə gələcək abituriyentlərə bildirmək istəyirəm ki, hər şey insanın öz əlindədir, yetər ki, istəyin, arzun, iradən olsun.

*Cümşüdova Əminə Hicran qızı (627 bal)*

Əvvəla, vaxtınızı düzgün bölün. Oxumağa da, istirahətə də vaxt ayırın. Əzbərçilikdən uzaq olun. Oxuduqlarınızı dərk edərək mənimsəyin. Öyrəndiklərinizi tətbiq etməyə çalışın.

*Məmmədəliyeva Arzu İlqar qızı (627 bal)*

Gələcək abituriyentlərə, ilk növbədə tövsiyə edirəm ki, yaxşı bildikləri fənlərin daxil olduğu ixtisas qrupunu seçsinlər. Çünki hazırlıq müddətində ixtisas seçimi ilə bağlı fikri dəyişmək arzuolunmaz nəticəyə gətirib çıxara bilər. Ümumiyyətlə, ixtisas seçiminə ciddi, məsuliyyətlə yanaşmaq lazımdır.

*Çağırqanov Elnur Vahid oğlu (609 bal)*

Qəbula düşən bütün suallar məktəb proqramına əsaslanır. Buna görə dərsliklərdəki mövzuları diqqətlə, ətraflı oxuyun. Sizə qaranlıq qalan, çətin olan mövzularla bağlı qeydlər edin, araşdırmalar aparın. Həmin mövzuları müəllimlərinizlə birgə müzakirə edin. Öyrəndiyiniz hər bir mövzu üzrə çoxlu test tapşırıqları edin. Bu, biliyinizin daha da möhkəmlənməsinə, dərinləşməsinə kömək edəcəkdir.

*Hacıyeva Aysel Kamandar qızı (606 bal)*

Yüksək bal toplamaq üçün ən vacib məsələ məqsəd və istəyin olmasıdır. Gündəlik dərsləri, tapşırıqları mütəmadi, ciddi, səliqəli yerinə yetirsəniz, qəbul imtahanında test tapşırıqlarını həll edərkən heç bir probleminiz olmaz.

## IV qrup

*Hüseynova İlahə Şakir qızı (675 bal)*

Hər bir şagirdə, abituriyentə məsləhət görərdim ki, mövzunu tam, dolğun mənimsəmək üçün müəllimlərdən ən xırda təfərrüatları da soruşmaqdan çəkinməsinlər.

*Abdullayeva Afət Əhməd qızı (667 bal)*

Qəbul imtahanının uğurlu nəticəsinin təməli hazırlıq işlərinin planlı, sistemli şəkildə qurulmasından asılıdır. İmtahanlara psixoloji və texniki cəhətdən yaxşı hazırlaşmaqda TQDK-nın keçirdiyi sınaq imtahanlarının çox böyük rolu var. İmkan daxilində bütün sınaq imtahanlarında iştirak etmək lazımdır.

*Anket sorğusu iştirakçılarına əlavə demək istədikləri fikir, arzu və təkliflərlə bağlı da müraciət olunmuşdu. Həmin müraciətə cavablardan daha çox maraq doğuran nümunələri təqdim edirik:*

# Rəylər, təkliflər, arzular

## I qrup

*Abbasov Nihad Natiq oğlu (700 bal)*
Keçirdiyi şəffaf imtahana görə TQDK-ya təşəkkür edirəm, uğurlarını davam etdirməyi arzulayıram.

*Allahverdiyev Əli Allahverdi oğlu (700 bal)*
"Abituriyent" jurnalı çox mükəmməl, sistemli hazırlanmış bir dərgidir. Jurnalda elm sahəsində uğur qazanmış insanların həyatı barədə maraqlı yazılar, onların elmi məqalələri dərc olunsa, məncə, jurnal daha oxunaqlı olar.

*Əliyeva Nərmin Çingiz qızı (700 bal)*
Qəbul imtahanında cavab kartında kodlaşdırma üçün əlavə yarım saat ayrılmasını təklif edirəm.

*Yaqublu Ceyhun Ziyadxan oğlu (695 bal)*
TQDK-nın təşkil etdiyi sınaq imtahanlarının sayı artırılsa, yaxşı olardı.

*Əzimzadə Aysu Qurban (684 bal)*
İstərdim ki, qəbul planı azaldılsın, müsabiqə şərti isə qaldırılsın. Yalnız yaxşı biliyi olan abituriyentlər ali təhsil almaq hüququ qazansın. Fikrimcə, 200 bal müsabiqə şərti kimi çox aşağıdır.

*Quliyev Ziyəddin Şərəfəddin oğlu (680 bal)*
Hazırlıq zamanı TQDK-nın nəşr etdiyi siniflər üzrə kitabçalar və test toplularından çox istifadə etdim. Buna görə TQDK-ya və zəhməti keçən hər bir insana minnətdarlığımı bildirirəm.

*Novruzova Məryəm İlham qızı (672 bal)*
Bütün müəllimlərimə təşəkkürümü bildirirəm. Tələbə adını qazanan bütün həmyaşıdlarımı isə təbrik edirəm!

*Cəbrayılov Məhərrəm Bəkir oğlu (667 bal)*
Qəbul imtahanında heç bir problemlə rastlaşmadım. Obyektivliyə, yüksək təşkilatçılığa görə TQDK-ya öz dərin minnətdarlığımı bildirirəm. Gələcək abituriyentlərə TQDK-nın təşkil etdiyi sınaq imtahanlarında mütəmadi iştirak etməyi məsləhət ğörürəm.

***Abdulova Zərifə Abıgül qızı (662 bal)***
İstərdim ki, müəllimlik ixtisası üzrə müsabiqə şərti həkimlik ixtisası kimi yüksək olsun. Çünki müəllimlik də həkimlik qədər məsuliyyətli, şərəfli peşədir. Yüksək hazırlıqlı abituriyentlərə öz ixtisas seçimlərində müəllimlik ixtisaslarına üstünlük verməyi tövsiyə edirəm.

***Həsənov Rəşad Aydın oğlu (652 bal)***
Arzu edərdim ki, ölkəmizdəki təhsil sistemi elə bir səviyyədə olsun ki, repetitorlara ehtiyac qalmasın.

***Əsədova Türkan Münasib qızı (638 bal)***
Gələcək abituriyentlərə uğurlar arzulayıram. Bizə yaratdığı şərait üçün isə TQDK-ya təşəkkür edirəm.

## II qrup

***İsmayılov Fərid Elxan (680 bal)***
İstərdim ki, qəbul imtahanı ildə bir neçə dəfə ayrı-ayrı fənlər üzrə keçirilsin. Hər abituriyentə ən azı iki cavab kartı verilsə yaxşı olar. Yəni cavab kartını doldurarkən təsadüfən, texniki səhvlərə yol verən abituriyentə daha bir şans verilsin.

***Həsənova Aysel Arzu qızı (674 bal)***
Bütün sınaq imtahanlarında iştirak etməyi, dərsliklərlə yanaşı, TQDK-nın nəşrlərindən istifadə etməyi və qəbul imtahanına hazırlıq dövründə vaxtı düzgün bölməyi məsləhət görürəm.

***Qafarov Əvəz Əzizağa oğlu (665 bal)***
Qəbul imtahanında bizə yaradılan yaxşı şəraitə, şəffaflığa, obyektivliyə görə TQDK-nın əməyi keçən hər bir əməkdaşına təşəkkürümü bildirirəm.

## III qrup

***Sultanlı Lalə Asəf qızı (659 bal)***
Açıq tipli test suallarının bütün fənlər üzrə test blokuna salınmasının əleyhinəyəm. Çünki bu tip test tapşırıqlarına az bir vaxtda vərdiş etmək asan deyil. Gələcəkdə açıq tipli test tapşırıqları bütün fənlər üzrə test blokuna daxil edilərsə, fikrimcə, o zaman imtahan vaxtını uzatmaq lazım gələcək.

*Surxayzadə Toğrul Məhərrəm oğlu (658 bal)*
İmtahanların təşkili, keçirilməsi və biliklərin obyektiv qiymətləndirilməsi işini yüksək peşəkarlıqla həyata keçirdiklərinə görə TQDK-nın rəhbərliyinə və əməkdaşlarına minnətdarlığımı bildirirəm.

*İsayeva Fidan Yunis qızı (612 bal)*
Dövlətimizin gənclərə qayğısı böyükdür. Bu qayğının bir qolu da onlara dövlət vəsaiti hesabına təhsil verməkdir. İstərdim ki, təhsili dövlət hesabına olan ixtisasların və yerlərin sayı artırılsın.

*Misirova Aynur Araz qızı (601 bal)*
Jurnalın yüksək bal toplayan abituriyentlərə həsr olunmuş 11-ci sayını çox təqdirəlayiq iş hesab edirəm. Mən hələ aşağı siniflərdən jurnalın hər ildə dərc olunan 11-ci sayını da daim izləmiş, bizdən əvvəlki yüksək bal toplayan abituriyentlərin tövsiyə və məsləhətlərini böyük həvəslə oxuyaraq özüm üçün nümunə götürmüşəm.

## IV qrup

*Eynallı Əlişah Elman oğlu (687 bal)*
İmtahan keçirilən binalarda buraxılış rejimində iştirak edən işçilərin sayının artırılmasını istərdim.

*Bahadurova Nəzrin Malik qızı (665 bal)*
Çox istərdim ki, TQDK qəbul imtahanlarına hazırlıqla bağlı buraxılış siniflərinin şagirdləri ilə görüşlər keçirsin.

*Vəliyev Rauf Rəhim oğlu (662 bal)*
"Bilik qiymətləndirilir" devizini öz fəaliyyətində rəhbər tutaraq təhsilimizə müstəsna xidmətlər göstərən TQDK-ya öz dərin minnətdarlığımızı bildiririk.

*Gəncəliyev Ədalət Gəncəli (644 bal)*
İstərdim ki, qəbul imtahanları il ərzində bir neçə dəfə keçirilsin. Belə olan təqdirdə uğursuz nəticə göstərən abituriyent növbəti imtahanı bir il gözləməli olmaz. Bundan başqa, TQDK-nın keçirdiyi qəbul imtahanlarının vaxtı dəyişdirilsə yaxşı olar. Belə ki, iyul ayında artıq bir çox xarici universitetlərə, xüsusən Türkiyə universitetlərinə tələbə qəbulu dayandırılır və biz topladığımız balla bu universitetlərə müraciət etmək üçün növbəti ili gözləməli oluruq.

*Mikayıllı Hüsniyyə Arif qızı (643 bal)*
Təklif edirəm ki, IV ixtisas qrupunun imtahan fənlərinin tərkibinə xarici dil fənni də əlavə edilsin.

*Həsənov Rövşən Əfqan oğlu (608 bal)*
Məleykə xanım Abbaszadə başda olmaqla TQDK-nın bütün kollektivinə imtahan zamanı yaratdıqları şəraitə görə təşəkkürümü bildirirəm.

*Quluzadə İlqar Xəqani oğlu (603 bal)*
TQDK-nın rəhbərliyinə qəbul imtahanlarının təşkilində yüksək dərəcədə obyektivlik, şəffaflıq nümayiş etdirdikləri üçün minnətdarlığımı bildirirəm.

***Əziz şagirdlər, sizə builki bilik yarışı öncülləri ilə keçirilmiş anket sorğunun materiallarından, onların məsləhət və tövsiyələrindən yararlanmağı, qəbul imtahanlarına hazırlaşarkən onların təcrübəsindən bir örnək, nümunə kimi yaradıcı şəkildə istifadə etməyi məsləhət görürük.***

**Materialı hazırladılar:**
*"Abituriyent"in analitik-informasiya qrupunun üzvləri*
*Rabil Novruzov*
*Sədi Nuriyev*
*Məhbubə Yusubova*
*Cavahirat Şirinova*
*Səbinə Vəliyeva*
*Cəmilə Mir-Bəşirova*

# MƏKTUBLARDAN SƏTİRLƏR

*Hər il Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına imtahanların təşkili, gedişi və nəticələri ilə bağlı çoxlu sayda yazılı və elektron məktublar, teleqram və müraciətlər daxil olur. Eyni zamanda, abituriyentlər arasında aparılan anket sorğusuna cavablarda bu məsələlərə münasibət bildirilir. Burada ictimai rəyin əks-sədası olan belə materiallardan bir neçə nümunəni dərc edirik.*

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri**
**Məleykə Abbaszadəyə**

Hörmətli Məleykə xanım, ailəmizin sevincinin həddi-hüdudu yoxdur. Bu il oğlum Əhmədov Mir-Abbas Əhməd oğlu qəbul imtahanında yüksək bal toplayıb. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının apardığı obyektiv, şəffaf imtahana görə Sizə ailəmiz adından dərin təşəkkürümü bildirirəm, Allah köməyiniz olsun.

*Əhmədov Əhməd Abbas oğlu*

**Azərbaycan Respublikası TQDK-nın sədri**
**Məleykə xanım Abbaszadəyə**

Məleykə xanım, salam! Sizi narahat edən Xocalı rayon Kosalar kənd sakini Süleymanov Füzuli Hətəm oğludur. Sizə imtahanların obyektiv və yüksək səviyyədə keçirilməsinə görə dərin təşəkkürümü bildirirəm. Mənim ilk övladım Süleymanova Sevil Füzuli qızı 2012-ci ildə qəbul imtahanında 665 bal toplamışdı. Onda da Sizə öz təşəkkürümü bildirmişdim. Builki qəbulda isə ikinci övladım Süleymanova Şahnaz Füzuli qızı IV qrup üzrə keçirilən qəbul imtahanında 635 bal toplayaraq müalicə işi ixtisasına qəbul olub. Həkim olmaq mənim özümün uşaqlıq arzum idi. Lakin müəyyən səbəblərə görə mənim arzum həyata keçmədi. İndi övladımın timsalında arzuma çatdım. Əgər imtahanlar qeyri-obyektiv olsaydı, bu, mümkün olmazdı. Bütün bunlara görə Sizə bir daha öz minnətdarlığımı bildirirəm.

Bu işdə Respublikanın Prezidenti İlham Əliyev cənablarının əməyini xüsusilə qeyd etmək lazımdır. Möhtərəm Prezidentimizin rəhbərliyi altında ölkəmiz günü-gündən çiçəklənir və abadlaşır. Bütün sahələrdə olduğu kimi, təhsilimiz də inkişaf edir. Respublikamızda gedən bu quruculuq və yaradıcılıq işlərini ancaq nankor insanlar görməyə bilər.

Mən çox şadam ki, Prezidentimizin rəhbərliyi altında Sizin kimi öz işini gözəl bilən bacarıqlı şəxslər çalışır.

Sizin keçirdiyiniz sınaq imtahanları abituriyentlər üçün çox yardımçı olur. Məktəblərə göndərilən sinif testləri kasıb ailələr üçün xeyli köməkdir. Yerlərdə olan kadrlar da çox düzgün seçilibdir. Onların insanlarla olan münasibəti adamı heyran edir. Bu da onu göstərir ki, kadr seçimində işlər düzgün aparılır.

Mən eləcə də TQDK-nın Gəncə regional bölməsinin əməkdaşlarına, xüsusən bu bölmənin Gəncə regional bölməsinin rəhbəri Nəsimi müəllimə dərin təşəkkürümü bildirirəm.

Bütün bu yazılanlar tək mənim fikrim deyil, Kosalar kəndinin əhalisinindir. Sadəcə olaraq camaatımız Sizə minnətdarlıqla bağlı müraciəti mənə həvalə etdi.

Məhz imtahanların belə obyektiv keçməsinə görə bizim kənddən xeyli şagird tələbə adı qazanıb. Biz test üsulu ilə qəbul imtahanlarının uzunömürlü olmasını arzulayırıq.

Mən bir daha Prezidentimizə uzun ömür, can salığı arzulayıram. Sizlərə də bu çətin və şərəfli işinizdə uğurlar diləyirəm. Arzu edirəm ki, Qarabağ işğaldan azad edilsin və TQDK-nın belə bir regional bölməsi Xankəndində yaradılsın. Qəbul imtahanları işğal altında olan rayonlarda da keçirilsin. Sağ olun! Sizə işinizdə daha böyük uğurlar arzulayıram.

*Hörmətlə, Füzuli Süleymanov*

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına**

Salam, çox hörmətli TQDK əməkdaşları! Sizə təşəkkür edirəm ki, bu günə qədər bizim hər bir müraciətimizə dəqiq, səlis, vaxtında və ətraflı cavab verirsiniz. Keçirdiyiniz ədalətli və obyektiv imtahan sayəsində ali məktəbə qəbul oldum. Buna görə Sizə minnətdaram. Kaş ki, həyatda hər şey belə ədalətli həll olunaydı. TQDK ölkəmizdə ən qabaqda gedən dövlət qurumlarından biri, bəlkə də birincisidir. Bütün gələcək və şərəfli işlərinizdə Sizə uğurlar, bol nailiyyətlər, daha böyük müvəffəqiyyətlər arzulayırıq.

*Tağı Cəfərli*

**Salam, çox hörmətli TQDK və "Abituriyent" jurnalı.**

Mən, Ağayeva Şəfiqə bu il Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının “Rəngkarlıq” fakültəsinə qəbul olmuşam. Bundan əvvəl də Əzim Əzimzadə adına İncəsənət Kollecini bitirmişəm. Rəssamlıq mənim uşaqlıqdan içimdə olan istək və arzudur. Arzumun reallaşması üçün yaratdığınız şəraitə görə Sizə dərin təşəkkürümü bildirirəm. Çox sağ olun ki, bu qədər ədalətlisiniz. Mən və mənim kimi gənclərin özünü təsdiq etməsinə və gələcəyin ziyalı bir şəxsiyyəti kimi yetişməsinə böyük dəstək verirsiniz. Bizdə yaratdığınız inama və mənəvi gücə görə hamınıza minnətdaram. Bir daha təşəkkürlər, əziz TQDK və "Abituriyent" jurnalı.

*Hörmətlə, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası*
*Rəngkarlıq fakültəsinin 1-ci kurs tələbəsi Ağayeva Şəfiqə*

**Hörmətli TQDK və "Abituriyent" jurnalı redaksiyasının əməkdaşları!**

Bu məktubu yazmaqda məqsədim biz abituriyentlərə yaratdığınız şəraitə görə Sizə təşəkkür etməkdir. Oxumaq, təhsil almaq, cəmiyyətə yararlı bir şəxsiyyət kimi formalaşmaq mənim ən böyük arzumdur. Mən Ağdam rayonunun Zəngişalı kənd məktəbində təhsil almışam. Bu kənd döyüş bölgəsində yerləşməsinə baxmayaraq, burada mənim kimi öz gələcəyini qurmaq istəyən yüzlərlə gənc var. Hazırda mən Bakı Slavyan Universitetinin jurnalistika və filologiya fakültəsinin 1-ci kurs tələbəsiyəm. Bu universitetdə oxumaq və yaxşı təhsil almaq mənim ən böyük arzularımdan biri idi. Çox təşəkkür edirəm ki, bu arzumun reallaşması üçün minlərlə abituriyent kimi mənə də hər cür şərait yaratdınız. İstifadə etdiyim testlər və getdiyim bütün sınaq imtahanları mənə çox kömək oldu. Təşəkkür məktubumu da bu sahədə bizə böyük dəstək olduğunuz üçün yazıram. Biz Sizin uğurlarınızıq. Qoy uğurlarınız daim bol olsun!

*Hörmətlə, Bakı Slavyan Universitetinin*
*Jurnalistika və Filologiya fakültəsinin*
*1-ci kurs tələbəsi Qasımova Diliş*

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına**

Hörmətli Məleykə xanım, keçirdiyiniz ədalətli imtahanlara görə Sizə təşəkkürümü bildirirəm. Sizin obyektiv və şəffaf fəaliyyətiniz sayəsində minlərlə abituriyent tələbə adını qazandı. İnanıram ki, bu uğurlarınız getdikcə daha da artacaq. “Abituriyent” jurnalı redaksiyasına xüsusi təşəkkürümü bildirirəm, çünki qələbəmin bir qismi jurnalın nəşr etdiyi vəsaitlər, toplular sayəsində reallaşdı. Nəşrlərin məzmun dərinliyi, çeşid zənginliyi bizlərə çox böyük köməkdir. Hamınıza işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

***Azərbaycan Dövlət Neft və Sənaye***
***Universitetinin I kurs tələbəsi Kazımova Sevinc***

**Tələbə Qəbulu üzrə dövlət Komissiyasının**
**sədri Məleykə Abbaszadəyə**

Qəbul imtahanlarında abituriyentlər üçün rahat şərait yaratdığınıza görə Sizə dərin minnətdarlığımı bildirirəm. Mən fransız dili müəllimiyəm və öz peşəmi çox sevirəm. TQDK öz işini hər zaman peşəkarcasına yerinə yetirir. Test kitabçalarının nəşri bizim şagird və abituriyentlərimizə çox fayda verir. Yaxın gələcəkdə fransız dili üzrə test toplusunun da nəşri bizlər üçün çox xoş olardı. Ümidvarıq ki, bu arzumuzu nəzərə alacaqsınız. Əvvəlcədən təşəkkürümü bildirirəm. Mən də bütün gücüm və bacarığımla TQDK-da çalışmaq istəyərdim. Bu, mənim ən böyük arzumdur.

***Hörmətlə,***
***Nazim müəllim***

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının**
**sədri Məleykə Abbaszadəyə**

Hörmətli Məleykə xanım!

Savadlı, peşəkar mütəxəssislərin yetişməsi üçün ali və orta ixtisas təhsili məktəblərinə layiqli, bilikli şagirdlərin seçilib qəbul olunması vacib şərtdir. Sizin rəhbərliyiniz altında Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının bu istiqamətdə gördüyü işlər, əldə etdiyi nailiyyətlər göz qabağındadır. Komissiyaya rəhbərlik etdiyiniz dövrdə ali və orta ixtisas məktəblərinə tələbə qəbulunun tam obyektiv və şəffaf keçirilməsinə nail olunmuşdur. Tələbə qəbulu prosesi cəmiyyətə açıq sistem şəklində həyata keçirilir. Komissiyanın tətbiq etdiyi yeniliklər şəffaflığın artırılmasına, abituriyentlərin daha hazırlıqlı olmasına xidmət edir. Bütün bunlar Sizin və rəhbərlik etdiyiniz kollektivin peşəkar, ədalətli və vicdanlı fəaliyyətinin nəticəsidir.

Xalqımızın və dövlətimizin mənafeyi naminə gördüyünüz işlərdə Sizə və kollektivinizə uğurlar arzulayırıq.

***Hörmətlə, II qrup Qarabağ əlili,***
***məcburi köçkün Orucov Şirindil***

**REDAKSİYA ŞURASI**
M.M.Abbaszadə, N.Ə.Babayev,
F.Ş.Bədəlbəyli,
A.Q.Abiyev, Ə.T.Əmiraslanov,
A.M.Məhərrəmov, P.A.Nağıyev,
A.M.Paşayev.

**REDAKSİYA HEYƏTİ**
T.A.Bədəlov (baş redaktor),
R.H.Novruzov (baş redaktorun I müavini), İ.M.Allahverdiyev,
A.H.Bağırov, G.M.Balacanova,
A.H.Batıyeva, N.N.Bayramova,
M.Ə.Əkbərli, V.O.Əkbərov,
N.L.Əliyev, X.S.Əzimova,
A.E.Həbibov, S.T.Həsənzadə,
N.Z.Hüseynova, Ç.C.Xəlilov,
X.Z.Kərimova, A.Ə.Qasımov,
S.S.Mərdanov, C.F.Orucov,
Ç.İ.Rüstəmov, O.Y.Şelaginov,
H.R.Zeynalov.

**Dİl və üslub üzrə redaktorlar:**
R.H.Novruzov, S.Ş.Nuriyev,
N.M.Musayev, M.Y.Yusubova.

**Texniki redaktor:**
M.Ə.Bədəlov.

**Kompüter və dizayn:**
X.S.Mirzəyev, A.Ə.Axundova,
L.M.Ağayeva, İ.İ.Cəfərov.

**Redaksiyanın ünvanı:**
AZ1078, Bakı şəhəri,
A.Salamzadə küçəsi, 28.

**Telefon:**
502-47-82(92) (TQDK)
431-62-36 (Redaksiya)

**E-mail:**
abiturient.journal@gmail.com

**web:** www.abiturient.az

Jurnal Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. (Lisenziya B 171, 18 fevral 1999)

**© TQDK – «Abituriyent» – 2015**

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının rəsmi razılığı olmadan jurnalın və ya onun hər hansı hissəsinin təkrar çapı, yayılması, elektron və ya mexaniki üsulla surətinin çıxarılması
**QADAĞANDIR!**

Jurnal Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının rəsmi materialları əsasında hazırlanmışdır.

Çapa imzalanmışdır 18.11.2015.

Reklam materiallarının məzmununa görə redaksiya cavabdeh deyil.

# Mündəricat

1 PREZİDENT TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI
2 TQDK-nın SƏDRİ M.ABBASZADƏNİN TƏBRİK VƏ TÖVSİYƏLƏRİ
4 PREZİDENT TƏQAÜDÇÜLƏRİ HAQQINDA MƏLUMAT
8 QƏBUL İMTAHANLARINDA YÜKSƏK NƏTİCƏLƏR ƏLDƏ ETMİŞ GƏNCLƏR HAQQINDA MƏLUMAT
13 ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ GƏNCLƏRLƏ MÜSAHİBƏLƏR

QƏBUL İMTAHANLARINDA 600-dən YUXARI BAL TOPLAMIŞ ABİTURİYENTLƏR
38 I QRUP
74 II QRUP
96 III QRUP
132 IV QRUP
154 QƏBUL İMTAHANLARINDA YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ GƏNCLƏRLƏ ANKET SORĞUSUNUN NƏTİCƏLƏRİ
158 BİLİK YARIŞI ÖNCÜLLƏRİNİN GƏLƏCƏK ABİTURİYENTLƏRƏ MƏSLƏHƏT VƏ TÖVSİYƏLƏRİ
162 RƏYLƏR, TƏKLİFLƏR, ARZULAR
165 MƏKTUBLARDAN SƏTİRLƏR

## "Abituriyent" jurnalının 12-ci sayında:

- 2015/2016-CI TƏDRİS İLİ ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASININ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN BAKALAVRİAT SƏVİYYƏSİNƏ TƏLƏBƏ QƏBULUNUN NƏTİCƏLƏRİNİN ELMİ-STATİSTİK TƏHLİLİ
- ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ ƏSASINDA TƏLƏBƏ QƏBULUNUN NƏTİCƏLƏRİ
- ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ ÖDƏNİŞLİ TƏHSİL FORMASI ÜZRƏ TƏLƏBƏ QƏBULUNUN NƏTİCƏLƏRİ
- DÖVLƏT VƏ ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULUNUN MÜQAYİSƏLİ TƏHLİLİ
- XÜSUSİ TƏYİNATLI TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULUNUN NƏTİCƏLƏRİ
- BÖLGƏLƏR ÜZRƏ 2015-Cİ İL MƏZUNLARININ QƏBUL İMTAHANLARINDAKI NƏTİCƏLƏRİNİN TƏHLİLİ
- ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MAGİSTRATURA SƏVİYYƏSİNƏ QƏBUL
- REZİDENTURAYA QƏBUL
- ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ TAM ORTA VƏ ÜMUMİ ORTA TƏHSİL BAZALARINDA TƏLƏBƏ QƏBULUNUN NƏTİCƏLƏRİ
- ÜMUMİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ BURAXILIŞ İMTAHANLARININ NƏTİCƏLƏRİ
- TQDK-NIN İCTİMAİYYƏTİN İSTİFADƏSİNƏ VERİLMİŞ NƏŞRLƏRİ HAQQINDA MƏLUMAT
- TQDK-NIN 2015-Cİ İLDƏ FƏALİYYƏTİ: FAKTLARIN XRONOLOGİYASI